27 iyul 2018-ci il
№28 (8794)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

## Bu sayımızda

**"eTwinning Plus" layihəsi çərçivəsində müsabiqə** ⇨səh.2

**Azərbaycan Təhsil Şəbəkəsi genişlənir** ⇨səh.6

**Milli Kvalifikasiyalar Çərçivəsi təsdiq edilib** ⇨səh.7

**"Müəllimlər müəllimi" filmi təqdim olunub** ⇨səh.7

# Sadə, amma həssas məsələ

## İxtisas seçimi mərhələsi də abituriyentdən dəqiqlik tələb edir



Ali təhsil müəssisələrinə qəbul imtahanları başa çatdı. Artıq imtahanlardan uğurla çıxanlar üçün ixtisas seçimi mərhələsi başlayır. Bu proses iyulun 30-dan start götürəcək. Avqustun 13-dək internet vasitəsilə aparılacaq bu mərhələ abituriyentlərdən xüsusi diqqət tələb edir. Mütəxəssislər kifayət qədər sadə hesab etdikləri bu mərhələdə abituriyentlərin kifayət qədər ciddi əhəmiyyət daşıyan səhvlərə yol verdiklərini qeyd edirlər. Odur ki, ixtisas seçməzdən əvvəl bilməli olduğunuz məqamları müəyyənləşdirin. Bu mərhələdə abituriyentlərin yol verə biləcəyi əsas yanlışlar nə ola bilər? Daha çox nəyə fikir vermək lazımdır?

Dövlət İmtahan Mərkəzinin mətbuatla iş sektorunun müdiri Xanlar Xanlarzadə də bu fikirdədir ki, növbəti mərhələdə də əsas iş abituriyentlərin öz üzərinə düşür: "Bu müddət ərzində müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin qarşısında öz ixtisas seçiminə bir daha nəzər salmaq, seçimini dəqiqləşdirmək və təsdiqləmək vəzifəsi durur".

Bu vəzifənin öhdəsindən necə, kiminlə məsləhətləşərək və ən əsası, kimin köməyi ilə gələcəyinə isə abituriyentlər xüsusilə diqqət yetirməlidirlər.

⇨Ardı səh.2

# Məktəb tətildə də maraqlıdır

## "Məktəblinin dostu" layihəsi çərçivəsində reallaşdırılan "Yay məktəbi"ndə bir gün

Yayın qızmar günlərindən biridir. Yəni, məktəblərin boşalan, kimsəsizləşən, canlı, səsli-küylü vaxtlarının arxada qaldığı günlərdən biri. Xətai rayonundakı 95 nömrəli tam orta məktəb də kənardan bomboş görünür. Ancaq boş deyil. Burada məktəb həyatı davam edir: daha əylənceli, daha yüksək əhvali-ruhiyyə ilə. Belə ki, iyul ayının ilk günlərindən burada "Məktəblinin dostu" layihəsinin yay məktəbi fəaliyyətə başlayıb. Bununla da 95 nömrəli təhsil müəssisəsi yay məktəbinin təşkil olunduğu 18 məktəbdən biri olub.

### 18 məktəbdən biri

Binada sakitlikdir. 1, 8 və 9-cu sinif otaqlarının qapıları açıqdır. 1-ci otaqda monitorlar quraşdırılıb. Monitorda 9-cu sinif otağında hərəkətlilik müşahidə olunur. Uşaqlar yarışırlar. "Məktəblinin dostu"nun müşahidə otağında növbətçi olan məktəblinin dostu məlumat verir ki, yay məktəbinin üzvləri 9-cu sinif otağındadırlar.

Hazırda V-VI sinif şagirdlərinin iştirakı ilə təşkil olunan yay məktəbi davam edir. Bir neçə gündən sonra, yəni avqust ayından yay məktəblərinin üzvləri VII-VIII sinif şagirdləri olacaq.

Qeyd edək ki, iyul ayı ərzində yay məktəbi 650-yə yaxın şagirdi əhatə edib. Avqust ayında yay məktəbinin təşkil olunduğu məktəblərin və şagirdlərin sayı azalacaq. Belə ki, 14 məktəbdə 400-ə yaxın VII-VIII sinif şagirdinin yay məktəbinə cəlb olunacağı nəzərdə tutulub.

2500 şagirdin təhsil aldığı 95 nömrəli tam orta məktəbdə 5 məktəblinin dostu fəaliyyət göstərir. Yay məktəbi ilə əlaqədar olaraq, hazırda onlar 8 nəfərdirlər: Dilguşə Fətəliyeva, Ayxan Abdullayev, Nüşabə Qaracayeva, Sona Hacılı, Hüseyn Hüseynzadə, Aişə Fərəcli, Qurban Əlizadə və Günel Hacıyeva.

### Bəs, yay məktəbinin üzvləri kimlərdir?

Qeyd etdiyimiz kimi, hazırda yay məktəbində V və VI sinif şagirdləridir. 95 nömrəli tam orta məktəbdə təşkil edilən yay məktəbinin 38 nəfər üzvü var. Gələn ay yay məktəbi VII-VIII sinif şagirdi olan 24 nəfər ilə davam edəcək.

Yay məktəbinin şagirdləri öz ərizələri əsasında seçilib. May ayından məktəbdə ərizə qəbuluna başlanılıb. Ərizə ilə yanaşı, uşaqlardan sağlamlıq haqqında arayış da tələb edilib. Dilguşə Fətəliyeva arayışın tələb olunmasında məqsədi belə izah edib: "Hər hansı yoluxucu xəstəliyinin olmadığına əminlik üçün arayış tələb etdik".

⇨Ardı səh.8

# Müəllimlərin işə qəbulu üzrə imtahanlar iyulun 31-də başa çatacaq

İyulun 16-dan müəllimlərin işə qəbulu üzrə müsabiqənin test mərhələsi keçirilir. İmtahanlara qatılmaq üçün 50 mindən artıq şəxs müraciət edib. Onlardan 46839 namizədin ərizəsi təsdiq edilib və test imtahanlarına dəvət olunub. Hər gün təxminən 4 min nəfərə yaxın namizəd test imtahan mərhələsində iştirak edir.

Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu nəzdində İnsan resursları mərkəzinin müdir əvəzi Murad Camalzadənin "Azərbaycan müəllimi" qəzetinə verdiyi məlumata görə, indiyədək 27519 nəfər test mərhələsindən keçib.

İmtahanlara ibtidai sinif müəllimliyinə iddialılarla start verilib. İngilis dili, riyaziyyat, informatika, təsviri incəsənət, Azərbaycan dili və ədəbiyyat, rus dili, rus dili və ədəbiyyatı, Azərbaycan dili, fransız dili və musiqi üzrə imtahanlar artıq başa çatıb.

⇨Ardı səh.2

# Ağıllı qələm, yeni nəsil eynək və intellektual oyunlar

Onlar SABAHın builki məzunlarıdır. Zahirən öz yaşıdlarından fərqlənməyən bu gənclər yüksək bilik və bacarıqları, ən əsası isə orijinal START UP layihələri ilə sözün yaxşı mənasında diqqətləri özlərinə çəkməyi bacarıblar. Söhbət Bakı Dövlət Universitetinin SABAH qruplarında təhsil almış Elçin Ağazadədən və Ağababa Bağırovdan gedir. Onu da xüsusi vurğulayaq ki, iyulun 5-də Bakı Konqres Mərkəzində keçirilən SABAHın məzun günü bu iki gəncə, eləcə də bütün SABAHçılara unudulmaz bir gün yaşatmaqla yanaşı, onlara yiyələndikləri yüksək bilik, qazandıqları bacarıqlar, kreativ düşüncələrinin məhsulu olaraq hazırladıqları layihələri geniş ictimaiyyətə təqdim etmək baxımından da unikal bir şans verdi.

Orta təhsilini Bakıdakı 70 nömrəli məktəb-liseydə alan Elçin Ağazadə çox kiçik yaşlarından fikirlərini səlis və sərbəst ifadə etməyi, hərtərəfli maraqları ilə hər kəsi ətrafında cəmləməyi bacarıb. Məhz riyazi qabiliyyəti, güclü zəkası və məntiqi mülahizə yürütmək bacarığı onu Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat və kibernetika fakültəsinə gətirib. Ali məktəblərə qəbul imtahanlarında 633 bal toplayaraq kompüter elmləri ixtisası üzrə təhsil almağa başlayıb.

SABAH qruplarına 3 mərhələli qəbul prosesini uğurla keçərək, bu qruplarda kompüter elmləri ixtisası üzrə təhsilini davam etdirmək şansı qazanıb. Buradakı fərqli və sağlam təhsil mühitindən, eləcə də yaradılan imkanlardan maksimum yararlanaraq ixtisasına aid biliklərini dərinləşdirməklə yanaşı, özünün bir çox şəxsi keyfiyyətini də təkmilləşdirib. SABAH qruplarının "Microsoft" şirkəti ilə əməkdaşlığı çərçivəsində maddi vəsait ödəmədən əldə etdiyi müxtəlif ixtisasyönümlü sertifikatlar onun dəyərləndirdiyi imkanlardan sadəcə biridir.

### Ağıllı qələm və yeni nəsil eynək

"Wand" və "ZoomX" (Ağıllı qələm və yeni nəsil eynək ). SABAH Karyera Akademiyası çərçivəsində START UP istiqamətini seçən Elçinin tələbə yoldaşları ilə hazırladığı START UP layihələr belə adlanır.

"Wand"ın biznes analitiki olan Elçin ilk olaraq bu layihə barədə məlumat verir: "Wand" - kağız üzərində etdiyiniz hər cızma-qaranı həm yazıldığı şəkildə, həm də elektron çap formatında "bluetooth" vasitəsilə telefonunuza göndərən ağıllı qələmdir. Qələmin əsas funksiyası onun müvəqqəti mürəkkəbdən istifadə etməsidir. Belə ki, istifadəçi kağız üzərində qeyd apardıqdan 5-10 dəqiqə sonra həmin mürəkkəb, yeni yazı kağız üzərindən buxarlanır. Lakin bu müddət ərzində istifadəçinin məlumatları artıq etibarlı bir şəkildə telefonun yaddaşında saxlanmış olur. Bu, eyni kağızı sonralar dəfələrlə yenidən istifadə etməyə imkan verir".

⇨Ardı səh.3



# "Apardığımız tədqiqatlar çox perspektivli sahələri əhatə edir"

## *İsmayıl İsmayılov:* "Gənc alimlərin dünya arenasında təmsil olunması daha çox onların özlərindən asılıdır"

Səh.6

# Peşə təhsili ilə bağlı müzakirə

İyulun 24-də "Azərbaycanda Peşə Təhsili və Təliminin (PTT) İnkişafına Avropa İttifaqının Dəstəyi" texniki yardım layihəsi çərçivəsində görülən işlərin nəticələrinə və növbəti hesabat müddətinə qədər planlaşdırılan tədbirlərə dair görüş keçirilib.

Tədbirdə Təhsil Nazirliyinin, Peşə Təhsili üzrə Dövlət Agentliyinin, Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin əməkdaşları, beynəlxalq və yerli ekspertlər iştirak edib.

Görüşün keçirilməsində əsas məqsəd layihənin hər bir komponenti üzrə görülmüş işlərin hesabatının və növbəti dövr üçün planlaşdırılmış fəaliyyətlərin müzakirə edilməsi olub.

Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Famil Mustafayev son illərdə ölkədə peşə təhsili sahəsində aparılan məqsədyönlü islahatlardan danışaraq bu istiqamətdə həyata keçirilən layihələrin və beynəlxalq təşkilatlarla əməkdaşlığın Azərbaycanda peşə təhsilinin inkişafına mühüm töhfə verdiyini vurğulayıb, layihə çərçivəsində nəzərdə tutulan fəaliyyətlərin uğurla icra olunacağına əminliyini ifadə edib.

Daha sonra ekspertlər layihə tərəfindən Peşə Təhsili üzrə Dövlət Agentliyi və maraqlı tərəflərlə əməkdaşlıq çərçivəsində həyata keçirilmiş işlər və növbəti hesabat müddətinə qədər planlaşdırılan tədbirlərə dair təqdimatla çıxış edib.

Tədbirdə Təhsil Nazirliyinin Beynəlxalq Əməkdaşlıq şöbəsinin müdir müavini Pərviz Yusifov, Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin Əməkdaşlıq şöbəsinin müdiri Yerun Villems, NİRAS şirkətinin nümayəndəsi Björn Hansson və layihənin meneceri Eliza Domagalska çıxış edərək layihənin icra vəziyyətinə və planlaşdırılmış fəaliyyətlərə dair fikirlərini bildiriblər.

## RƏSMİ XRONİKA



- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 26-da Göyçay rayonunun Cəyirli-Alpout avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.
- Prezident İlham Əliyev iyulun 25-də Tərtər rayonunda xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.
- İyulun 24-də dövlət başçısı İlham Əliyev Qaradağ rayonunun Lökbatan-Qızıldaş avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.
- Prezident İlham Əliyev iyulun 24-də Yunanıstan Respublikasının Prezidenti Prokopis Pavlopulosa Afina yaxınlığında tüğyan edən meşə yanğınları nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı verib.
- İyulun 23-də ölkə başçısı İlham Əliyev Masallı rayonunun Şatıroba-Hişkədərə-Miyanku-Kubin-Birinci Səmədxanlı-Xallıcalı-Əminli-Məmmədxanlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.
- Azərbaycan Prezidenti İlham Əliyev iyulun 23-də Maldiv Respublikasının Prezidenti Abdulla Yamin Abdul Qəyyuma bu ölkənin milli bayramı - Müstəqillik Günü münasibətilə təbrik məktubu ünvanlayıb.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 19-20 iyul tarixlərində Fransa Respublikasının Prezidenti Emmanuel Makronun dəvəti ilə Fransada səfərdə olub. Parisdə, Yelisey Sarayında Fransa Respublikasının Prezidenti Emmanuel Makronla Azərbaycan Prezidenti İlham Əliyev arasında söhbət olub, Azərbaycan-Avropa İttifaqı əlaqələri ətrafında fikir mübadiləsi aparılıb. Müzakirələr zamanı Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika, ekologiya, nəqliyyat, təhlükəsizlik, mədəni və digər sahələrdə uğurla inkişaf etdiyi bildirilib, Azərbaycanda Fransız Liseyinin və Azərbaycan-Fransız Universitetinin fəaliyyət göstərməsindən məmnunluq ifadə olunub. Səfər çərçivəsində Prezident İlham Əliyevin Fransanın 11 şirkətinin nümayəndələri ilə işgüzar görüşləri keçirilib, bir sıra sənədlər imzalanıb.
- İyulun 20-də dövlət başçısı İlham Əliyev Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisiyə bu ölkənin milli bayramı - İnqilab Günü münasibətilə təbrik məktubu ünvanlayıb.

# Müəllimlərin işə qəbulu üzrə imtahanlar iyulun 31-də başa çatacaq

⇦ Əvvəli səh.1

İndiyədək yalnız bir nəfər ən yüksək - 60 bal toplayıb. O, iyulun 23-də ümumi təhsil müəssisələrinə müəllimlərin işə qəbulu üzrə müsabiqənin test mərhələsində riyaziyyat fənni üzrə imtahan verən Göyçay rayonunun Cəyirli kənd sakini Fidan Hacıyeva olub. Ucar rayonunun Boyat kəndində daimi əsaslarla müəllim işləyən F.Hacıyeva müəllimlərin işə qəbulu üzrə müsabiqəsinə yerdəyişmə imkanı qazanmaq üçün baş vurub.

İyulun 25-də isə ümumi təhsil müəssisələrinə müəllimlərin işə qəbulu üzrə müsabiqənin keçirildiyi Azərbaycan Texniki Universitetinin İdman Kompleksinə növbəti infotur təşkil edilib. Tədbirdə Xalq yazıçısı Çingiz Abdullayev, Xalq artisti Nurəddin Mehdixanlı, Əməkdar artist Bəhram Bağırzadə, əvvəlki illərdə müəllimlərin işə qəbulu imtahanlarında iştirak edən, hazırda isə ölkəmizin müxtəlif bölgələrində çalışan gənc müəllimlər iştirak edib. Qonaqlar Azərbaycan dili və ədəbiyyat üzrə keçirilən imtahanın gedişini yaxından izləyib, namizədlər üçün yaradılan şəraitlə tanış olub və prosesə bağlı fikir mübadiləsi aparıblar.

Xatırladaq ki, ilk mediatur ibtidai sinif müəllimlərinin imtahanına təşkil edilib.

İyulun 27-də isə tarix və kimya üzrə imtahanlar keçiriləcək. Fizika və texnologiya üzrə 28 iyul, biologiya üzrə 30 iyul, fiziki tərbiyə üzrə 30-31 iyul, coğrafiya üzrə 31 iyul tarixlərində test imtahanları təşkil ediləcək. Azərbaycan Texniki Universitetinin İdman Kompleksində keçirilən imtahanlar iyulun 31-də başa çatacaq.

Qeyd edək ki, imtahanlarda namizədlərə ixtisaslarına uyğun olaraq ümumtəhsil məktəblərinin fənn proqramının məzmunu üzrə 40, metodika, təlim strategiyaları üzrə 10 və məntiq üzrə 10 sual olmaqla ümumilikdə 60 sualı cavablandırmaq üçün 90 dəqiqə vaxt verilir.

Müəllimlərin işə qəbul imtahanlarının test mərhələsi gələn həftə başa çatacaq. Bundan sonra isə vakansiya seçimi mərhələsi olacaq. Həmin mərhələdə keçid balını toplamış namizədlər 8 vakant yer seçəcəklər. Namizədlərin vakant yerlərə yerləşdirilməsi elektron ərizələrində qeyd etdikləri seçim ardıcıllığı gözlənilməklə aparılacaq.

Builki müsabiqəyə 7000-dən artıq vakant yer çıxarılıb. Bütün fənlər üzrə vakansiya var. İxtisaslı kadrlara ən böyük ehtiyac isə rus bölməsindədir.

Test imtahan mərhələsindən uğurla keçən namizədlər müsahibə mərhələsinə dəvət olunacaqlar. Müsahibə mərhələsində test imtahanlarının nəticələrinə əsasən vakant yer tutmaq hüququ qazanmış namizədlərin bilik və bacarıqları, psixoloji hazırlığı və ümumi dünyagörüşü yoxlanılacaq.

# Sadə, amma həssas məsələ

## İxtisas seçimi mərhələsi də abituriyentdən dəqiqlik tələb edir

⇦ Əvvəli səh.1

Ruhiyyə DAŞSALAHLI

### İxtisas seçiminə hansı imtahanın nəticəsi ilə qatılacaqsan?

“Azərbaycan müəllimi” qəzetinə açıqlamasında X.Xanlarzadə xüsusi vurğulayıb ki, çox sadə proses olan ixtisas seçimini abituriyentin özü həyata keçirməlidir. Bunun üçün də hər abituriyentin bilməli olduğu məqamlar var: “Məsələn, abituriyentlər öz ərizələrində 15-ə qədər ixtisas kodunu qeyd edirlər. “Abituriyent” jurnalının 4 nömrəli buraxılışı əsasında ixtisas kodunu müəyyənləşdirmək mümkündür. Bilirsiniz ki, artıq 2 ildir abituriyentlərə ali təhsil müəssisələrinə qəbul imtahanlarında 2 dəfə iştirak etmək hüququ verilir. Abituriyentə təklif olunur ki, hansı imtahanın nəticəsi ilə müsabiqəyə qatılmaq istədiyinə özü qərar versin. Odur ki, elektron ərizəsini açanda orada yaz, yoxsa yay imtahan nəticəsi ilə müsabiqəyə qatılmaq istədiyinə dair sorğuya cavab verməlidir. Abituriyent hansı nəticəsini istəsə, onu seçir və ondan sonra ixtisas kodlarını daxil edir”.

### Hansı ixtisas qrupu üzrə ixtisası birinci seçəcəksən?

Bəlli olduğu kimi, bu ildən yaz və yay imtahan sessiyalarında abituriyentlərə ayrı-ayrı ixtisas qrupları üzrə imtahanlara qatılmaq şansı verilib. Abituriyent müxtəlif ixtisas qrupları üzrə imtahanlarda iştirak edib və hər iki ixtisas qrupu üzrə imtahan şərtlərini ödəyibsə, o, hər iki ixtisas qrupu üzrə seçdiyi ixtisasları qeyd edə bilər. Bu zaman abituriyent ilk növbədə onu nəzərə almalıdır ki, hansı ixtisası daha çox istəyir: “İxtisaslar onlara olan maraq və istəyin azalması istiqamətində sıralanmalıdır. Yəni, ən çox istədiyiniz ixtisaslar ilk sıralarda qeyd edilməlidir”.

X.Xanlarzadə əlavə edib ki, abituriyentlər qeyd olunan 15 ixtisasın hamısını seçmək məcburiyyətində deyillər. Sadəcə, onlara bu imkan verilir. Abituriyentlər arasında bir ixtisas yazanlar da çoxdur. Tutaq ki, sadəcə müəllimliyi, ya da müalicə işi ixtisasını seçənlərin sayı kifayət qədərdir.

Abituriyentlər ilk növbədə onu müəyyənləşdirməlidirlər ki, seçdikləri ixtisas üzrə təhsil almaq istəyirlərmi? İxtisası qeyd edib təsdiqləməzdən öncə bu suala cavab tapmalıdırlar: “Bu, kifayət qədər ciddi məsələ olduğundan üzərində daha çox düşünməlidirlər. İnternetdə bu istiqamətdə araşdırma aparsınlar. Qəbul olmaq istədikləri ali məktəbə getsinlər, mühitlə tanış olsunlar. Maraqlansınlar ki, həmin ixtisasa qəbul olunduqdan sonra kimlərdən, hansı fənlərdən təhsil alacaqlar, gələcəkdə harada işləyə biləcəklər. Əmək bazarının ümumi vəziyyətini araşdırsınlar. Abituriyent üçün maraqlı olmalıdır ki, 4 il sonra həmin ixtisas üzrə təhsilini başa vurub iş tapa biləcəkmi? Bəzən tələbə ixtisası seçir, təhsil almağa başlayanda peşman olur. Odur ki, elə ixtisaslar seçsinlər ki, hər birində təhsil almaq, karyera qurmaq istəsinlər”.

X.Xanlarzadə abituriyentlərin seçim apararkən qarışdırdığı bir məqama da diqqət çəkib: “İxtisas seçimi siyahısında həm dövlət sifarişli, həm də ödənişli ixtisasları seçmək istəyirlərsə, diqqətli olmalıdırlar. İxtisas kodunu daxil edərkən abituriyent ödənişli, yoxsa dövlət sifarişli yer olduğunu bildirən qeydi işarələməlidir. Həm ödənişli, həm də dövlət sifarişli yerləri seçmək istəyirsə, ikinci dəfə də eyni kodu yazmalı, bu dəfə növbəti təhsil növünü qeyd etməlidir. Məsələn, kodu yazıb qarşısında dövlət sifarişli yer göstəribsə, ikinci dəfə eyni kodu yazıb bu dəfə ödənişli yeri seçməlidir”.

### Valideyninizlə məsləhətləşdinizmi?

Bu da önəmli məsələlərdəndir. İxtisas seçməzdən əvvəl bəzi məqamlar mütləq valideynlərlə müzakirə olunmalıdır. Abituriyentlərin valideynləri ilə məsləhətləşməli olduğu həmin məqamlar nədir? Məsələn, abituriyent rayonda yaşayır, amma Bakıda təhsil almaq istəyirsə, ixtisas seçərkən bunu valideyni ilə müzakirə etməlidir. Ailənin maddi imkanı yoxdursa, onun Bakıda təhsilini təmin edib-edə bilməyəcəklərini əvvəlcədən müəyyənləşdirməlidir. Eyni zamanda, ödənişli ixtisas seçərkən də valideyninin fikri öyrənilməlidir. Məlumdur ki, ödənişli ixtisas seçərkən müəyyən məbləğdə təhsil haqqı ödənilməlidir. Buna valideynin imkanı çatacaqmı? Bu məsələlər abituriyentlə valideyn arasında razılaşdırılmalıdır.

### İxtisas seçimində texniki səhv mümkün deyil

İxtisas seçiminin texniki tərəflərinə gəlincə, X.Xanlarzadənin sözlərinə görə, burada çətin heç nə yoxdur: “İxtisas seçimini abituriyentlər özü həyata keçirməlidirlər. Bunu heç kəsə həvalə etməməlidirlər. Xüsusilə, son vaxtlar fəallaşan xüsusi insanlar, hətta qruplar var ki, pul alaraq ixtisas seçimini öz üzərinə götürürlər. Əslində, ixtisas seçimi Dövlət İmtahan Mərkəzinin rəsmi saytı vasitəsilə elektron qaydada aparılır və texniki cəhətdən bu prosesi həyata keçirmək çox sadədir. Prosesi necə həyata keçirməklə bağlı elektron ixtisas seçimi ərizəsində də təlimat yerləşdirilib. Proqram təminatı elə qurulub ki, səhv etmək ehtimalı da yoxdur və ərizəni “yadda saxla” düyməsini basdıqda səhv və onun mahiyyəti barədə xəbərdarlıq edilir”.



X.Xanlarzadə bu mərhələdə ən çox rast gələnən yanlışlardan da danışıb: “Abituriyentlər elektron ixtisas seçimi ərizəsinə daxil olaraq ixtisasları qeyd edir və “yadda saxla” düyməsini basırlar. Unudurlar ki, bundan sonra daha bir iş var. Ərizəni mütləq təsdiqləmək lazımdır. Yəni “Yadda saxla” düyməsindən sonra qeyd edilənləri yoxlayıb hər hansı səhv olmadığına əmin olduqdan sonra mütləq “Təsdiq et” düyməsi də basılmalıdır. Bundan sonra ekrana elektron ərizənin təsdiq olunduğuna dair bildiriş gəlir”.

“Abituriyent” jurnalının 4 nömrəli buraxılışında “Abituriyentin elektron ixtisas seçimi ərizəsi”nin doldurulma qaydası, qəbul aparılan ixtisaslar, plan yerləri, 2 nömrəli buraxılışında isə ötən ilin tələbə qəbulu müsabiqəsində ayrı-ayrı ixtisaslar üzrə formalaşmış keçid balları dərc olunub. Keçid ballarını da nəzərə almaq seçimin uğurlu olmasına müsbət təsir göstərə bilər: “Bilirsiniz ki, keçid balı “müsabiqə şərti” anlayışından fərqlənir. Keçid balı o deməkdir ki, müsabiqə zamanı hər hansı ixtisasa ayrılan plan yerləri və həmin ixtisas üzrə qəbul olunan ən sonuncu abituriyentin balına bərabər olan göstəricidir. Misalla izah edim. Tutaq ki, hər hansı ixtisas üçün 40 plan yeri ayrılıb. Həmin ixtisas üzrə müsabiqədə iştirak edən 60 abituriyentdən 40-nın balı keçid balıdır. Bizə ən çox ünvanlanan suallardan biri məhz keçid balı ilə əlaqədar olur. Keçid balının qalxacağı, yoxsa əksinə, düşəcəyi həmişə soruşulur. Amma nəzərə alınmalıdır ki, keçid balı müsabiqə nəticəsində formalaşır. Müsabiqə şərtlərində əvvəlcədən bal qeyd olunur. Amma keçid balını müsabiqədən sonra bilirik. Ümumi istiqamət götürmək üçün abituriyentlər ötən il formalaşmış keçid ballarına baxa bilərlər. Burada da nəzərə almaq lazımdır ki, keçid balı arta, ya da azala bilər. Tutaq ki, ixtisas üzrə plan yerlərinin sayı ötən ilə nisbətən azalıbsa, abituriyentlərin sayı isə dəyişməyibsə, deməli, həmin ixtisas üzrə keçid balları daha yuxarı olacaq. Məsələn, IV ixtisas qrupunun ixtisasları üzrə plan yerləri 25-dək azalıb. Abituriyentlərin imtahan nəticələri də ötən illə müqayisədə bu il daha yuxarıdır. Bu o deməkdir ki, adıçəkilən ixtisas qrupunda keçid balının daha yuxarı olacağını güman etmək olar. Müəyyən ixtisaslar da var ki, plan yerləri artıb. Abituriyentlərin sayı da eyni qalıbsa, bu onu deməyə əsas verir ki, həmin ixtisas qrupu üzrə keçid balları daha aşağı olacaq. Abituriyentlər ixtisas seçərkən bunları təhlil etməlidirlər”.

### Hər deyilənə inanma

Beləliklə, ixtisasınızı özünüz seçin. Elə ixtisas seçin ki, sonra oxuya, daha sonra isə işləyə biləsiniz. Bu mərhələdə başqalarının söylədiklərinə isə fikir verməyin. X.Xanlarzadə deyir ki, ixtisas seçimində taleyini başqalarının əlinə etibar etməyin abituriyentlər üçün ağır nəticələri ola bilər: “Çox təəssüf ki, son günlər sosial şəbəkələrdə apardığımız monitorinqlər göstərir ki, bəzi insanlar abituriyentlər və onların valideynlərinin etibarından sui-istifadə edib özlərini reklam etməklə ödəniş müqabilində ixtisas seçimlərinin onlar tərəfindən həyata keçirilməsi ilə bağlı çağırışlar edirlər. Kömək vəd edənlər arasında hətta özünü Dövlət İmtahan Mərkəzinin əməkdaşı kimi təqdim edənlərə də rast gəlinir. Abituriyentlərə və onların valideynlərinə tövsiyə edirik ki, diqqətli olsunlar və bu işi kommersiya məqsədilə görən müəyyən qrup insanların vədlərinə inanmasınlar”.

Odur ki, abituriyentlər Dövlət İmtahan Mərkəzinin regional bölmələrində, Azərbaycan Universiteti və Qərbi Kaspi Universitetində ixtisas seçimi ilə əlaqədar onlara kömək etmək məqsədilə yaradılmış və ödənişsiz əsaslarla fəaliyyət göstərən “Abituriyent Məsləhət Mərkəzləri”nə də müraciət edə bilərlər. “Məsləhət mərkəzləri”ndə xüsusi treninq keçmiş əməkdaşlar abituriyentlərə tələbə qəbulu qaydaları, “Abituriyentin elektron ixtisas seçimi ərizəsi”nin doldurulma və təsdiq edilməsi qaydası, müsabiqə şərtləri, ixtisas seçimi zamanı diqqət yetirilməli olan vacib məsələlər və s. haqqında ödənişsiz köməklik göstərirlər. Bundan əlavə, iyulun 30-da Dövlət İmtahan Mərkəzinin əməkdaşları tərəfindən Mərkəzin “İnstagram” və “Facebook” səhifələrində ixtisas seçimi zamanı diqqət yetirilməli olan məsələlər haqqında canlı yayım ediləcək, abituriyentlərin sualları cavablandırılacaq.

# “eTwinning Plus” layihəsi çərçivəsində müsabiqə

“eTwinning Plus” layihəsinə qoşulmuş təhsil işçilərinin bu ilin sonunadək xarici ölkələrdə keçiriləcək beynəlxalq təlimlərdə iştirakı ilə bağlı seçim müsabiqəsi başa çatıb.

“eTwinning” proqramı üzrə il ərzində layihələrdə iştirak edən təhsil işçiləri üçün müxtəlif seminarlar, konfranslar və peşəkar inkişaf proqramları təşkil olunur. Xarici ölkələrdə keçirilən tədbirlər əsasən 2-3 gün davam edir. Müəllimlərin iştirakı ilə bağlı bütün xərclər Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi (TSİİ) tərəfindən imzalanmış “eTwinning Plus” qrant layihəsinin büdcə hesabından maliyyələşdirilir.

Tədbirlərdə iştirak üçün seçim müsabiqəsi 2 mərhələdə aparılır. Bu il 1-ci mərhələyə 26 nəfər müəllim müraciət edib. Müraciət edən hər bir namizəd üçün ilkin bal hesablanıb. Müsabiqənin 2-ci mərhələsinə keçən 8 nəfər namizəd Təhsil Nazirliyinin Təhsilin inkişafı proqramları şöbəsi, Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu və Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsini təmsil edən işçi qrupu tərəfindən müsahibə mərhələsinə dəvət olunublar. İyulun 23-də keçirilən müsahibədən uğurla keçən 4 nəfər namizəd cari ildə “eTwinning” çərçivəsində Avropa şəhərlərində keçiriləcək beynəlxalq təlimlərdə iştirak hüququ qazanıblar.

Qeyd edək ki, Azərbaycanda “eTwinning Plus” layihəsi 2016-cı ildən etibarən Təhsil Nazirliyi nəzdində Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi tərəfindən reallaşdırılır. Layihə çərçivəsində Azərbaycandan indiyədək 261 məktəbdən 726 müəllimin iştirakı ilə 786 təhsil layihəsi həyata keçirilib. Eyni zamanda, “eTwinning Plus” layihəsində iştirak edən müəllimlərin pedaqoji bilik və bacarıqlarının artırılması məqsədi ilə onlayn təlimlər, Avropanın müxtəlif ölkələrində seminar və konfranslar təşkil olunub və layihəyə üzv olan müəllimlər bu tədbirlərdə iştirak ediblər.

# Ağıllı qələm, yeni nəsil eynək və intellektual oyunlar

## SABAHın START UP layihələri ilə diqqəti özünə çəkməyi bacaran məzunları Azərbaycan brendini yaratmaq istəyirlər



⇦ Əvvəli səh.1

**Samirə KƏRİMOVA**

Elçin qələmin gətirəcəyi gəliri də əsl biznes analitiki kimi təhlil edib: "1 Wand qələminin qiyməti 25 dollardır. Hər bir qələmin istehsalına 20 dollar xərc çəkilir ki, bu da hər satışda 5 dollar gəlir deməkdir. Bir neçə ildən sonra illik ortalama 300 min satış həcminə çatdığımızı fikirləşsək, ildə 1.5 milyon dollar gəlir əldə etmiş olarıq ki, bu da ölkəmizin iqtisadiyyatının güclənməsinə səbəb olar".

"Wand" qələminin bazarda mövcud rəqiblərindən əsas üstünlükləri isə bunlardır:

1) Unikallıq:

"Wand" bazarda müvəqqəti mürəkkəbdən istifadə edən ilk qələmdir. Digər qələmlərin heç biri bu funksiyanı təqdim etmir.

2) Alqoritm:

Bazardakı digər qələmlərin satış qiyməti ortalama 240 dollardır. Çünki onların istifadə etdiyi alqoritm qələmi yalnız spesifik, xüsusi dəftərlər üzərində istifadə etməyə imkan verir. İstifadəçi məcburdur ki, həmin dəftəri qələmlə birlikdə alsın, çünki əks halda qələm yararsız aparatdan başqa bir şey deyil. Bu kimi əlavə məcburi vəsaitlərə görə də həmin qələmlərin qiyməti kifayət qədər bahadır.

Lakin "Wand"da istifadə olunan innovativ tanıma alqoritmi və texnologiya qələmi heç bir əlavə cihaz və ya vəsait tələb olunmadan istifadə etməyə imkan verir ki, bu da qələmlərin qiymətinin 25 dollarla hüdudlanmasına gətirib çıxarır.

Vaxta qənaət etmək baxımından da qələmin əhəmiyyəti böyükdür. Belə ki, müəllimin auditoriyada bu qələmlə yazdığı müxtəlif məlumatlar, tələbələrin telefonlarına yüklədikləri xüsusi proqram vasitəsi ilə avtomatik olaraq telefonda əks olunur. Verilən hər hansı bilgilər sonradan həm yazılı formada çıxarıla, həm də telefonda qala bilər.

"Wand" qələmi həm də ekoloji dostumuza çevrilə bilər. Elçin belə düşünür. Misal üçün, təkcə ABŞ-da 7 milyard ağacın hər il kağız istehsalı üçün kəsildiyini nəzərə alsaq, onun ekologiya, təbiətin mühafizəsi və iqlim dəyişikliyi üzərində hansı müsbət və nəhəng təsirlərə malik olmasını təsəvvür etmək elə də çətin deyil.

Layihənin böyük maraqla qarşılandığını deyən E.Ağazadə bildirib ki, "Wand" İnformasiya Kommunikasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun 4-cü Qrant Müsabiqəsi çərçivəsində qalib kimi 12000 AZN dəyərində maddi dəstək əldə edib. Bundan başqa, layihə 2017-ci ildə təşkil olunan Lütfi Zadə İnnovasiyalar olimpiadasının qalibi, "GİST Tech-I" Beynəlxalq START UP Çempionatının Azərbaycanı təmsil edən yeganə yarımfinalçısı, "Bakutel 2017" tədbirinin iştirakçısıdır.

"Wand"la bağlı məlumatlar nüfuzlu "Euronews" telekanalı tərəfindən işıqlandırılıb və kanalın rəsmi saytında məqalə dərc olunub.

Bu son deyil... Elçinin təqdim etdiyi digər START UP layihəsi "ZoomX"adlanır. "ZoomX" - mobil tətbiqetmə vasitəsilə idarə olunan və istifadəçiyə eynəyin nömrəsini -6; +3 aralığında öz görmə qabiliyyətinə uyğun tənzimləməyə imkan verən yeni nəsil eynəkdir. Layihənin rəhbəri olan bu istedadlı gənc tələbə yoldaşları ilə birlikdə hazırladıqları eynəklə eyni vaxtda təyinatından asılı olaraq müxtəlif optik eynəklərdən istifadə edən insanların işini xeyli rahatladacağını deyir.

Layihənin hədəf kütləsi kifayət qədər geniş olub, yaxıngörmə, uzaqgörmə və presbiopiya xəstəliklərindən əziyyət çəkən insanları əhatə edir. Belə ki, gündəlik həyatda bir neçə eynəkdən istifadə edən insanlar (əsasən presbiopiya xəstələri) 9 görmə dərəcəsinə sahib olan bu eynəkdən istifadə etməklə, artıq 2 və ya 3 eynək almaq məcburiyyətində qalmayacaq. Sadəcə, eyni bir eynəyə qoyulacaq kiçik cihaz vasitəsi ilə xüsusi hazırlanmış proqramla görmə nömrəsini tənzimləyərək istədiyi kimi istifadə edə biləcək. Bundan başqa, istifadəçinin görmə qabiliyyəti zamanla dəyişərsə, o, yeni eynək almağa ehtiyac duymayacaq. Həmin proqram istifadəçiyə görmə qabiliyyətinə uyğun olaraq nömrəsini öyrənmək imkanı yaradacaq.



Elçin Ağazadə

Həmsöhbətim qısa zamanda ölkənin START UP ekosisteminin maraq dairəsinə sürətli giriş etməyi bacaran bu layihəyə ilk maddi və mənəvi dəstəyin də məhz elə Təhsil Nazirliyi və SABAH qrupları tərəfindən gəldiyini söyləyir. Belə ki, layihə qatıldığı "SABAH" İnnovasiya Forumunun qalibi olaraq ilkin prototipin hazırlanması üçün qranta layiq görülüb.

Həmçinin layihə İnformasiya Kommunikasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun 5-ci Qrant Müsabiqəsi çərçivəsində qalib kimi 11000 AZN dəyərində maddi dəstək əldə edib.

Bundan başqa, layihə 2017-ci ildə "Golden Byte" Beynəlxalq İT Çempionatının regional finalında, eləcə də Lütfi Zadə İnnovasiyalar Olimpiadasında III, "Microsoft" şirkətinin "İmagine Cup" yarışmasının Milli Finalında isə II yerlərə layiq görülüb.

"ZoomX" layihəsi 2017-ci ilin oktyabrında baş tutan 11-ci Azərbaycan Beynəlxalq Təhsil Sərgisinin və Azərbaycan Milli Mədəniyyət Forumunun nəzdində təşkil olunan "TeamLab Workshop"unun iştirakçısıdır. Bu layihə 2018-ci ilin may ayında təşkil olunan"Emerge Challange" yarışmasının yarımfinalçısıdır.

Göründüyü kimi, müxtəlif yerli və beynəlxalq yarışlarda nailiyyətlər qazanan layihə nəinki yerli, o cümlədən xarici investorların da diqqətini cəlb etməyi bacarıb. Belə ki, hazırda bu istiqamətdə danışıqlar aparılır və layihənin yekun satış variantının hazırlanması üzərində çalışılır.

### "Tələbələr sabahlarını SABAHla qursunlar"

Elçin əmək fəaliyyəti sferasında da fərqlənir və artıq 1 ildir ki, Azərbaycanın ən öncül özəl İT şirkətlərinin birində çalışır.

Təhsilini davam etdirmək istəyən bu gənc tam təqaüdlə Estoniyanın Tartu Universitetində İnnovasiya və texnologiya menecmenti ixtisası üzrə magistraturaya qəbul olunub. Avropanın bir çox ölkəsindən tam təqaüdlə qəbul alan Elçin seçimini Estoniyanın nəinki Avropanın, hətta dünyanın ən uğurlu START UP mərkəzlərindən biri olması, bu və digər imkanlar baxımından gələcək üçün daha çox perspektiv vəd etməsi ilə əlaqələndirir.



Ağababa Bağırov

**"SABAH bir brenddir. Özü də Azərbaycan təhsilinin fəxrlə üzərində daşıyacağı bir brend. Gələcək həyat yolunda yaşıl işıq yandırmaq istəyən tələbələr sabahlarını SABAHla qursunlar".**

O, bu günə qədər əldə etdiklərini uğur yox, məqsədə doğru gedən yolda qazanılmış nailiyyətlər kimi dəyərləndirir. Bu nailiyyətləri əsas məqsədə aparan nərdivanın pillələri kimi təsəvvür edir. Həmin pillələri addımlamaqda ona yardımçı olan valideynlərinin, müəllimlərinin, universitet həyatının, xüsusilə də SABAHın əvəzsiz dəstək və motivasiyasını isə heç vaxt unutmayacağını bildirir.

Əsas məqsədi haqqında hələ ki, danışmaq istəmədiyini deyən Elçinin SABAH haqqında yekun fikirləri isə belədir: "SABAH bir brenddir. Özü də Azərbaycan təhsilinin fəxrlə üzərində daşıyacağı bir brend. Gələcək həyat yolunda yaşıl işıq yandırmaq istəyən tələbələr sabahlarını SABAHla qursunlar".

### 7 yaşında kiçik animasiya yaradıb

Digər həmsöhbətim Ağababa Bağırov da BDU-nun SABAH qruplarında kompüter elmləri ixtisası üzrə təhsil alıb. Azərbaycan Dövlət Neft və Sənaye Universitetində 1-ci kursu bitirdikdən sonra BDU-nun SABAH qruplarına qəbul olunub.

Lap kiçik yaşlarından şəkil çəkmək, nələrsə düzəltmək və kompüter oyunlarının yaradılması onun marağında olub. Hələ 6 yaşı olanda animasiya qurmağa cəhd edib. Uşaq vaxtı köhnə sovet cizgi filmlərinə baxdıqda onların necə yaranması ilə maraqlanan Ağababa artıq 7 yaşında bir qutunun içinə çəkdiyi şəkilləri qoyub çarx ilə fırladaraq kiçik animasiya yaradıb. Daha sonra 3D animasiyaları, xüsusilə kompüter oyunlarının cəlbediciliyi onun bu sahə ilə daha yaxından maraqlanmasına səbəb olub. O, artıq çəkdiyi şəkillərə hərəkət verərək onları daha da canlandırmaq istəyirdi. 12 yaşı olanda kompüter oyunları haqqında araşdırmalar aparmağa başlayıb. Həmin vaxt yalnız bir kompüter proqramı yükləyə bilən Ağababa onu incələyərək ilk iki - axtarış və labirint oyunlarını düzəldib.

Lakin çox təəssüf ki, o zamanlar yeniyetmənin ətrafında bu işlə məşğul olmasını dəstəkləyən, müəyyən istiqamət verən insanlar yox idi.

Orta məktəbi bitirdikdən sonra iki seçim - rəssamlıq, yoxsa kompüter elmləri arasında qalan Ağababa arzuladığı sahə ilə məşğul olması üçün ikincini seçir. Universitetdə oxuduğu müddətdə "game development"ə və süni intellektə marağı daha da artır. Təhsilini kompüter elmləri ixtisası üzrə alan gəncin bütün bu öyrəndikləri, SABAH qruplarında əldə etdiyi bilik və bacarıq onun incəsənətlə bağlı məqsədlərinə xidmət edir. Hansı ki, çəkdiyi şəkillərə hərəkət, proqramlaşdırma, idarəetmə qataraq onları canlandıra bilir və bütün bunlar da özünü kompüter oyunlarında cəmləşdirir: "İKT ilə bağlı əldə etdiyim bacarıqlarım mənə təxəyyülümdə canlandırdığım obrazları, fikirləri, görüntüləri reallaşdırmaq və digər insanlar tərəfindən onları görmək, həmin şəkillərin içində gəzmək, hətta müəyyən şeyləri idarə etmək imkanı yaradır. Biz bununla dünyaya, insanlara daha çox şey ifadə edə bilərik".

3-cü kursda oxuyarkən kompüter oyunları ilə bağlı START UP layihələr hazırlayaraq bu sahə ilə daha ciddi məşğul olmağa başlayıb.

Oyunlardan biri "Balaca qəhrəman" ("The Little Hero") adlanır. Oyun 3D pazl oyunudur. "Balaca qəhrəman" oyununun əsas məqsədi insanların yaddaşını gücləndirmək, axtarış etmə, məntiqi düşünmə qabiliyyətini inkişaf etdirmək, zamanlarını düzgün bölməyə yardımçı olmaqdır.

Oyunun janrı strategiya, pazl və məntiqdir. Oyun mobil versiyada nəzərdə tutulub. Burada təqdim olunan 3D pazlları tamamlamaq tələb olunur.

Ağababa bu oyunun ona uğur gətirdiyini söyləyir. Oyunun "Golden Byte" Beynəlxalq İT Çempionatının regional finalında I, Lütfi Zadə İnnovasiyalar Olimpiadasında II yerlərə layiq görüldüyünü söyləyir. İstedadlı gənc 2017-ci ilin mart ayında keçirilən "SABAH" İnnovasiya Forumunda hazırladığı "Balaca qəhrəman"ın maraqla qarşılandığını, həmin ilin aprelində isə Ukraynada bu oyunla ölkəmizi təmsil etdiyini bildirir.



"On" oyunu

### SABAHın məzun gününə hazırladığı "On" oyunu

"On"oyununun düzəldilməsinə bu ilin mayından başlayıb. Oyunun stolüstü versiyasını hazırlayan Ağababa hazırda onun mobil versiyası üzərində işləyir. Hazırladığı oyunun mahiyyətini belə açıqlayır: "Oyunda strategiya, məntiq tələb olunur, burada kart və daşlardan istifadə edilir. Oyunun iki forması mövcuddur: kompüter oyunu və stolüstü oyun. Oyunun əsas məqsədi insanlarda məntiqi, strateji düşünmə qabiliyyətini gücləndirməkdir. Hədəf kütləsi istənilən yaş qrupu ola bilər. Oyunun çətinlik dərəcəsini azaldıb-artırmaq mümkündür".

Hazırladığı kompüter oyunu özündə iki növü birləşdirir. Bunlar təknəfərlik və ikinəfərlik oyunlardır. Təknəfərlik oyun əsas oyun hesab olunur və müəyyən süjet xəttinə malikdir. Burada müxtəlif səviyyələri ardıcıl olaraq keçmək lazımdır. İkinəfərlik oyunu isə istənilən zaman dostlarla birlikdə oynamaq olar.

Stolüstü oyunun isə ikinəfərlik oyundan ibarət olduğunu deyən müəllif onun əsas ideyasının verilmiş 4 kartı bitirmək olduğunu deyir. Belə ki, kartı ən tez bitirən şəxs oyunun qalibi hesab edilir. Oyunçular üçün müəyyən bir oyunçu daşı və oyun zamanı ala biləcəyi əlavə köməkçi daşlar mövcuddur. Oyunçu daşı yuxarı, aşağı, sağa, sola, diaqonal üzrə hərəkət etdirə bilər. Lakin oyun başladıqda hər bir oyunçu daşı yalnız yuxarı, aşağı, sağa, sola bir dama olaraq hərəkət etdirə bilər. Digər hərəkətlər isə oyun zamanı sizin yürütdüyünüz strategiya ilə əldə etdiyiniz əlavə daşlarla mümkün olur.

### "SABAH mənə məqsədimə yaxınlaşmaqda yardımçı olub"

Ağababa deyir ki, müxtəlif stolüstü oyunlar hazırlamaq, həmin oyunları nəinki ölkəmizdə, həmçinin dünyada Azərbaycan brendi altında tanıtmaq ən böyük arzusudur: "Arzumu reallaşdırmağa, gördüyüm işləri dəstəkləyən və düzgün istiqamət verən olmasa idi, bəlkə də mən kreativ düşüncələrimin məhsulu kimi ərsəyə gələn bu layihələrimi təqdim edə bilməzdim. SABAH mənə məqsədimə yaxınlaşmaqda yardımçı olub".

Hazırda özəl şirkətlərdən birində çalışan istedadlı gənc həmçinin məktəblilərə 3D modelləşdirmə, texnologiya ilə bağlı dərslər keçir.

Ağababa İKT üzrə bilik və bacarıqlarını daha da artırmaq, inkişaf etdirmək üçün magistratura təhsilini ABŞ-da almaq istəyir.

### Gələcək sabahlarımızı aydınlaşdıracaq SABAHçılar

Bəli, həm Elçini, həm də Ağababanı dinlədikcə onların timsalında gələcək sabahlarımızı öz elmi, ağlı, peşəkarlığı ilə aydınlaşdıracaq neçə-neçə gəncimizin olduğunu görürük. Elə fəaliyyətinin ilk günündən SABAH qrupları da bunu bizlərə vəd edib.

# 2018-2019-cu dərs ilində dövlət ümumtəhsil məktəblərində məktəbəhazırlıq qruplarının təşkili barədə

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Uşaqların məktəbəhazırlığının təşkili məsələləri haqqında” 2016-cı il 11 iyul tarixli 271 nömrəli qərarının, “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı”nın icrasına dair Təhsil Nazirliyinin 2018-2020-ci illər üçün Tədbirlər Planının 3.1.3.1-ci bəndinin yerinə yetirilməsini təmin etmək məqsədi ilə “Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Naxçıvan MR Təhsil Nazirliyi, Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Gəncə Şəhər Təhsil İdarəsi və rayon (şəhər) təhsil şöbələrinə tapşırılsın ki:

1.1. Aidiyyəti yerli təşkilatlarla birgə 2018-2019-cu dərs ilində məktəbəhazırlıq qruplarına cəlb olunacaq 2013-cü ildə anadan olmuş uşaqların sayının dəqiqləşdirilməsi, müəllimlərin və ərazilər üzrə məktəbəhazırlıq təhsili təşkil ediləcək məktəblərin müəyyənləşdirilməsi üçün müvafiq tədbirlər görsünlər.

1.2. Məktəbəhazırlıq qruplarının müəllimlərinin, əsasən, diaqnostik qiymətləndirmədə yüksək nəticə göstərmiş və həmin dərs ilində IV siniflərlə işləyəcək ibtidai sinif müəllimləri arasından seçilməsini nəzarətdə saxlasınlar.

1.3. Məktəbəhazırlıq qruplarının müəyyən olunmuş qaydalar əsasında və Nazirlər Kabinetinin 2016-cı il 11 iyul tarixli 271 nömrəli qərarına uyğun olaraq şəhər və rayonlar üzrə 2018-2019-cu dərs ilində məktəbəhazırlığa cəlb olunacaq uşaqların sayı proqnozu daxilində komplektləşdirilməsini təmin etsinlər.

1.4. Məktəbəhazırlıq qrupları yaradılacaq ümumtəhsil məktəblərində lazımi təlim şəraitinin təmin olunması istiqamətində tədbirlər həyata keçirsinlər.

1.5. 2018-ci il oktyabr ayının 15-dək əlavə olunan forma üzrə məlumatı və görülmüş işlər barədə yazılı hesabatı Nazirliyə göndərsinlər.

**2.** Məktəbəhazırlıq qruplarına uşaqların qəbulunun elektron sistem vasitəsilə həyata keçirilməsinin əhatə dairəsinin genişləndirilməsi məqsədi ilə Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Gəncə Şəhər Təhsil İdarəsi, Sumqayıt, Mingəçevir, Şirvan, Naftalan, Abşeron, Yevlax, Samux rayon (şəhər) təhsil şöbələri tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələrinin, o cümlədən həmin şəhər və rayonlarda yerləşən məcburi köçkün məktəblərinin məktəbəhazırlıq qruplarına uşaqların qeydiyyatının mektebeqebul.edu.az sistemində aparılmasını təmin etsinlər.

**3.** Məcburi köçkün rayonlarının məktəblərində müvafiq imkan və şərait, kadr potensialı olmadığı, məcburi köçkün ailələrindən olan uşaqların mövcud sayı bu məktəblərdə məktəbəhazırlıq qruplarının təşkilinə əsas vermədiyi hallarda həmin uşaqlar məktəbəhazırlıq təhsilinə ərazi üzrə yerli məktəblərdə cəlb edilsinlər.

**4.** Müvafiq ərazi maliyyə hesablaşma mərkəzləri məktəbəhazırlıq qruplarının mövcud normativlər əsasında və müəyyən edilmiş say çərçivəsində təşkilini nəzarətdə saxlasınlar.

**5.** Təhsilin inkişafı proqramları şöbəsi (Emin Əmrullayev), İnsan resursları şöbəsi (Eşqi Bağırov), Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu (Vəfa Yaqublu) məktəbəhazırlıq təhsilini aparacaq müəllimlərin yerlərdən alınmış adlı siyahısı əsasında həmin müəllimlər üçün təsdiq olunmuş tədris planı və proqrama uyğun öyrədici təlimlərin avqust-sentyabr ayları ərzində təşkilini təmin etsinlər.

**6.** Ümumi və məktəbəqədər təhsil şöbəsi (Aydın Əhmədov), Təhsil İnstitutu (Emin Əmrullayev), Tədris resursları şöbəsi (Elvin Rüstəmov) 2018-2019-cu dərs ilində məktəbəhazırlıq təhsilinin təşkili üçün tələb olunan tədris resurslarının, malların adı və miqdarı barədə məlumatı Maliyyə şöbəsinə təqdim etsinlər.

**7.** Maliyyə şöbəsi (Rauf Orucov) və Əsaslı Tikinti və Təchizat İdarəsi (Anar Axundov) ayrılmış büdcə vəsaiti çərçivəsində əmrin 5-ci bəndinin icrası üzrə təqdim olunacaq məlumatlar əsasında məktəbəhazırlıq təhsilinin təşkili ilə bağlı tələb olunan tədris resurslarının və digər malların satın alınması və vaxtında ümumi təhsil müəssisələrinə çatdırılması ilə bağlı aidiyyəti tədbirlərin görülməsini təmin etsinlər.

**8.** İnformasiya şöbəsi (Elvin Məmmədov) KİV-lərdə məktəbəhazırlığın təşkili ilə bağlı təbliğat və maarifləndirmə işlərinin həyata keçirilməsini, əmrin “Azərbaycan müəllimi” qəzetində dərc olunmasını və Nazirliyin internet saytında yerləşdirilməsini təmin etsin.

**9.** Əmrin icrasına nəzarət nazir müavini Məhəbbət Vəliyevaya həvalə olunsun.

**Ceyhun BAYRAMOV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*20 iyul 2018-ci il*

# Dövlət ümumtəhsil məktəblərində yaradılan məktəbəhazırlıq qrupları üçün 2018-2019-cu dərs ilinə aid tədris (məşğələ) planının təsdiqi barədə

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

Azərbaycan Respublikasının dövlət ümumtəhsil məktəblərində yaradılan məktəbəhazırlıq qruplarında təhsil prosesinin təşkili və tənzimlənməsini təmin etmək məqsədi ilə “Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 8.10-1-ci və 13.5-ci bəndlərini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikasının dövlət ümumtəhsil məktəblərində yaradılan məktəbəhazırlıq qruplarının 2018-2019-cu dərs ilinə aid tədris (məşğələ) planı və tədris (məşğələ) planına dair “Qeydlər” təsdiq edilsin (1 və 2 nömrəli əlavələr).

**2.** İnformasiya şöbəsi (E.Məmmədov) əmrin əlavələrlə birlikdə “Azərbaycan müəllimi” qəzetində dərc olunmasını və Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**3.** Əmrin icrasına nəzarət nazir müavini Məhəbbət Vəliyevaya həvalə olunsun.

**Ceyhun BAYRAMOV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*20 iyul 2018-ci il*

*Azərbaycan Respublikası təhsil nazirinin 20.07.2018-ci il tarixli, F-525 nömrəli əmrinə 1 nömrəli əlavə*

### Dövlət ümumtəhsil məktəbinin məktəbəhazırlıq qrupu üçün tədris (məşğələ) planı

| № | Dərs məşğələləri | Həftəlik məşğələ saatlarının miqdarı |
|---|---|---|
| 1 | Ətraf aləmlə tanışlıq | 1 |
| 2 | Savad təliminə hazırlıq və nitq inkişafı | 2 |
| 3 | Bədii təfəkkürün inkişafı | 1 |
| 4 | Məntiqi və riyazi təfəkkürün inkişafı | 2 |
| 5 | Təsviri fəaliyyət | 2 |
| 6 | Musiqi | 2 |
| 7 | Fiziki mədəniyyət | 2 |
| | **Cəmi:** | **12** |

*Azərbaycan Respublikası təhsil nazirinin 20.07.2018-ci il tarixli, F-525 nömrəli əmrinə 2 nömrəli əlavə*

### Tədris (məşğələ) planına dair qeydlər

**1.** Dövlət ümumtəhsil məktəblərində yaradılmış məktəbəhazırlıq qruplarına 5 yaşı həmin il tamam olan uşaqlar qəbul edilirlər.

**2.** Məktəbəhazırlıq qruplarında uşaqların sıxlığı aşağıdakı kimi müəyyənləşdirilir:

- qəsəbə və kəndlərdə yerləşən ümumtəhsil məktəbləri üçün - ən azı 10 uşaq;
- şəhərlərdə yerləşən ümumtəhsil məktəbləri üçün - ən azı 15 uşaq.

**3.** Dövlət ümumtəhsil məktəblərində yaradılan məktəbəhazırlıq qrupunda uşaqların sayının 30 nəfərdən artıq olmasına yol verilmir.

**4.** Məktəbəhazırlıq qruplarında məşğələlər oktyabrın 1-də başlayır və mayın 31-də başa çatır.

**5.** Məktəbəhazırlıq məşğələləri həftədə 4 (dörd) gün keçilir. Bir gün ərzində 3 (üç) məşğələ tədris olunur.

**6.** Bir məşğələnin müddəti 30 dəqiqə, məşğələlərarası fasilə 10 dəqiqə müəyyən edilir. Zehni gərginlik tələb edən məşğələlərdə, bir qayda olaraq, 3 idman dəqiqəsi keçirilir.

**7.** Məktəbəhazırlıq qruplarında təhsil alan uşaqlara ev tapşırıqları nəzərdə tutulmur.

**8.** Məktəbəhazırlıq qruplarında məşğələlərə davamiyyət və tədris olunan mövzu müvafiq sinif jurnalında qeyd edilir, uşaqların təlim nailiyyətləri şifahi formada qiymətləndirilir və bu barədə valideynlərə məlumat verilir.

**9.** Məktəbəhazırlıq qruplarında məşğələlər yalnız ibtidai sinif müəllimi ixtisaslı və müəyyən iş təcrübəsinə malik müəllim tərəfindən aparılır.

**10.** Məktəbəhazırlıq qruplarında dərs ili iki yarımilə bölünür:

- I yarımil: 1 oktyabr-26 yanvar;
- II yarımil: 1 fevral-31 may.

**11.** Dərs ili ərzində aşağıdakı tətillər müəyyən olunur:

- 5 gün payız tətili (16-20 noyabr);
- 5 gün qış tətili (27-31 yanvar);
- 5 gün əlavə tətil (1-5 may).

# Fərdi təhsil üzrə nümunəvi tədris planının təsdiqi barədə

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

Uzun müddət təhsildən kənarda qalmış şəxslərin fərdi təhsilinin təşkili və tənzimlənməsini təmin etmək məqsədilə “Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 8.10-1 və 13.5-ci bəndlərini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Uzun müddət təhsildən kənarda qalmış şəxslərin ümumtəhsil məktəblərində təşkil olunan fərdi təhsilinə aid 2018-2019-cu dərs ili üçün tədris planı və tədris planına dair “Qeydlər” təsdiq edilsin (1, 2 və 3 nömrəli əlavələr).

**2.** İnformasiya şöbəsi (E.Məmmədov) bu əmrin əlavələrlə birlikdə “Azərbaycan müəllimi” qəzetində dərc olunmasını və Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**3.** Əmrin icrasına nəzarət nazir müavini Məhəbbət Vəliyevaya həvalə olunsun.

**Ceyhun BAYRAMOV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*20 iyul 2018-ci il*

*Azərbaycan Respublikası təhsil nazirinin 20.07.2018-ci il tarixli, F-527 nömrəli əmrinə 1 nömrəli əlavə*

### 2018-2019-cu dərs ili üçün ümumtəhsil məktəblərində təşkil olunan fərdi təhsilin nümunəvi tədris planı

*(tədris Azərbaycan dilində)*

| № | Fənlər | Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | I | II | III | IV | V | VI | VII | VIII |
| 1. | Azərbaycan dili | 4 | 4 | 4 | 4 | 3 | 3 | 3 | 3 |
| 2. | Ədəbiyyat | | | | | 1 | 1 | 1 | 1 |
| 3. | Riyaziyyat | 2 | 2 | 2 | 2 | 3 | 3 | 3 | 3 |
| 4. | İnformatika | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| 5. | Həyat bilgisi | 1 | 1 | 1 | 1 | | | | |
| 6. | Azərbaycan tarixi | | | | | 1 | 1 | 1 | 1 |
| 7. | Coğrafiya | | | | | | 0,5 | 0,5 | 0,5 |
| 8. | Fizika | | | | | | 0,5 | 0,5 | 0,5 |
| 9. | Kimya | | | | | | | 0,5 | 0,5 |
| 10. | Biologiya | | | | | | 0,5 | 0,5 | 0,5 |
| | **Cəmi:** | **8** | **8** | **8** | **8** | **9** | **10,5** | **11** | **11** |

*Azərbaycan Respublikası təhsil nazirinin 20.07.2018-ci il tarixli, F-527 nömrəli əmrinə 2 nömrəli əlavə*

### 2018-2019-cu dərs ili üçün ümumtəhsil məktəblərində təşkil olunan fərdi təhsilin nümunəvi tədris planı

*(tədris rus dilində)*

| № | Fənlər | Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | I | II | III | IV | V | VI | VII | VIII |
| 1. | Rus dili | 4 | 4 | 4 | 4 | 3 | 3 | 3 | 3 |
| 2. | Ədəbiyyat | | | | | 1 | 1 | 1 | 1 |
| 3. | Azərbaycan dili (dövlət dili kimi) | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 4. | Riyaziyyat | 2 | 2 | 2 | 2 | 3 | 3 | 3 | 3 |
| 5. | İnformatika | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| 6. | Həyat bilgisi | 1 | 1 | 1 | 1 | | | | |
| 7. | Azərbaycan tarixi | | | | | 1 | 1 | 1 | 1 |
| 8. | Coğrafiya | | | | | | 0,5 | 0,5 | 0,5 |
| 9. | Fizika | | | | | | 0,5 | 0,5 | 0,5 |
| 10. | Kimya | | | | | | | 0,5 | 0,5 |
| 11. | Biologiya | | | | | | 0,5 | 0,5 | 0,5 |
| | **Cəmi:** | **10** | **10** | **10** | **10** | **11** | **12,5** | **13** | **13** |

*Azərbaycan Respublikası təhsil nazirinin 20.07.2018-ci il tarixli, F-527 nömrəli əmrinə 3 nömrəli əlavə*

### Tədris planına dair qeydlər

**1.** Bu tədris planı Azərbaycan Respublikası təhsil nazirinin 29.05.2014-cü il tarixli, 645 nömrəli əmri ilə təsdiq edilmiş “Fərdi təhsilin təşkili haqqında Qaydalar”a uyğun olaraq, uzun müddət təhsildən kənarda qalmış şəxslərin təhsilinin təşkilini tənzimləyir.

**2.** Tədris planına daxil edilən fənlər üzrə proqramlar nəzərdə tutulan həftəlik dərs saatlarının miqdarına uyğun olaraq, ən zəruri bilik və bacarıqların mənimsədilməsi təmin edilməklə müvafiq ümumi təhsil proqramları əsasında aidiyyəti fənn müəllimlərinin iştirakı ilə təhsil şöbəsinin (idarəsinin) metodkabineti tərəfindən hazırlanıb təsdiq olunur.

**3.** Tədris planı üzrə dərslər həftədə 4 (dörd) gün təşkil edilir. Dərs məşğələlərinin müddəti 45 dəqiqədir.

**4.** Dərs saatı həftədə 0,5 saat olan fənlər dərs cədvəlində qeyd edilməklə həftəaşırı tədris olunur.

**5.** Fərdi təhsilə cəlb olunmuş şəxslər dərs ili ərzində müəyyən edilmiş tətillərə ümumtəhsil məktəb şagirdləri ilə eyni vaxtda buraxılırlar.

# Ümumtəhsil məktəblərinin 2018-2019-cu dərs ilinə aid tədris planlarının təsdiqi haqqında

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

Ümumi təhsil müəssisələrində təhsil prosesinin təşkili və tənzimlənməsini təmin etmək məqsədilə "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 8.10-1-ci və 13.5-ci bəndlərini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikasının tədris Azərbaycan, rus, gürcü dillərində aparılan, ləzgi dili və azsaylı xalqların dilləri öyrədilən ümumtəhsil məktəbləri üçün 2018-2019-cu dərs ilinə aid aşağıdakı tədris planları və "Tədris planlarına dair qeydlər" təsdiq edilsin:

1.1. Ümumtəhsil məktəblərinin I-XI sinifləri üçün tədris planları (1, 2, 3 nömrəli əlavələr);

1.2. Ləzgi dili öyrədilən ümumtəhsil məktəblərinin I-XI sinifləri üçün tədris planları (4, 5 nömrəli əlavələr);

1.3. Azsaylı xalqların dilləri öyrədilən ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün tədris planları (6, 7 nömrəli əlavələr);

1.4. "Tədris planlarına dair qeydlər" (8 nömrəli əlavə).

**2.** Ümumi və məktəbəqədər təhsil şöbəsi (A.Əhmədov) və Maliyyə şöbəsi (R.Orucov) tədris planlarının çap olunub vaxtında yerlərə çatdırılmasını təmin etsinlər.

**3.** İnformasiya şöbəsi (E.Məmmədov) bu əmrin əlavələrlə birlikdə "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını və Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Əmrin icrasına nəzarət nazir müavini Məhəbbət Vəliyevaya həvalə olunsun.

**Ceyhun BAYRAMOV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*20 iyul 2018-ci il*

*Azərbaycan Respublikası təhsil nazirinin 20 iyul 2018-ci il tarixli, F-528 nömrəli əmri ilə təsdiq edilib*

# 2018-2019-cu dərs ili üçün ümumtəhsil məktəblərinin tədris planları

**2018-2019-cu dərs ilində ümumtəhsil məktəblərinin I-XI sinifləri üçün tədris planı (tədris Azərbaycan dilində)**

**Əlavə 1**

| № | Fənnin adı | Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI |
| 1 | Azərbaycan dili | 9 | 10 | 10 | 10 | 5 | 4 | 4 | 3 | 2 | 3 | 3 |
| 2 | Ədəbiyyat | | | | | 2 | 2 | 2 | 2 | 3 | 2 | 2 |
| 3 | Xarici dil | 1 | 1 | 1 | 1 | 3 | 3 | 3 | 3 | 2 | 4 | 4 |
| 4 | İkinci xarici dil | | | | | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 |
| 5 | Riyaziyyat | 4 | 4 | 4 | 4 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 |
| 6 | İnformatika | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 |
| 7 | Azərbaycan tarixi | | | | | 2 | 1 | 1 | 2 | 2 | 2 | 2 |
| 8 | Ümumi tarix | | | | | | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| 9 | Fizika | | | | | | 1 | 2 | 2 | 3 | 2 | 2 |
| 10 | Kimya | | | | | | | 1 | 2 | 2 | 2 | 2 |
| 11 | Biologiya | | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 12 | Coğrafiya | | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 13 | Həyat bilgisi | 1 | 1 | 2 | 2 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 14 | Texnologiya | 1 | 1 | 2 | 2 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 15 | Fiziki tərbiyə | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 16 | Musiqi | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 17 | Təsviri incəsənət | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 18 | Çağırışaqədərki hazırlıq | | | | | | | | | | 2 | 2 |
| **Cəmi:** | | **21** | **22** | **24** | **24** | **25** | **29** | **31** | **32** | **32** | **33** | **33** |
| Dərsdənkənar məşğələlər | | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 | 2 | 2 |
| **Yekun:** | | **22** | **23** | **25** | **25** | **26** | **30** | **32** | **34** | **34** | **35** | **35** |

**2018-2019-cu dərs ilində ümumtəhsil məktəblərinin I-XI sinifləri üçün tədris planı (tədris rus dilində)**

**Əlavə 2**

| № | Fənnin adı | Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI |
| 1 | Rus dili | 9 | 10 | 10 | 10 | 5 | 4 | 4 | 3 | 2 | 3 | 3 |
| 2 | Ədəbiyyat | | | | | 2 | 2 | 2 | 2 | 3 | 2 | 2 |
| 3 | Azərbaycan dili - dövlət dili kimi | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 4 | Xarici dil | 1 | 1 | 1 | 1 | 3 | 3 | 3 | 3 | 2 | 4 | 4 |
| 5 | İkinci xarici dil | | | | | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 |
| 6 | Riyaziyyat | 4 | 4 | 4 | 4 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 |
| 7 | İnformatika | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 |
| 8 | Azərbaycan tarixi | | | | | 2 | 1 | 1 | 2 | 2 | 2 | 2 |
| 9 | Ümumi tarix | | | | | | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| 10 | Fizika | | | | | | 1 | 2 | 2 | 3 | 2 | 2 |
| 11 | Kimya | | | | | | | 1 | 2 | 2 | 2 | 2 |
| 12 | Biologiya | | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 13 | Coğrafiya | | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 14 | Həyat bilgisi | 1 | 1 | 2 | 2 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 15 | Texnologiya | 1 | 1 | 2 | 2 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 16 | Fiziki tərbiyə | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 17 | Musiqi | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 18 | Təsviri incəsənət | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 19 | Çağırışaqədərki hazırlıq | | | | | | | | | | 2 | 2 |
| **Cəmi:** | | **23** | **24** | **26** | **26** | **27** | **31** | **33** | **34** | **34** | **35** | **35** |
| Dərsdənkənar məşğələlər | | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 | 2 | **2** |
| **Yekun:** | | **24** | **25** | **27** | **27** | **28** | **32** | **34** | **36** | **36** | **37** | **37** |

**2018-2019-cu dərs ilində ümumtəhsil məktəblərinin I-XI sinifləri üçün tədris planı (tədris gürcü dilində)**

**Əlavə 3**

| № | Fənnin adı | Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI |
| 1 | Gürcü dili | 9 | 10 | 10 | 10 | 5 | 4 | 4 | 3 | 2 | 3 | 3 |
| 2 | Ədəbiyyat | | | | | 2 | 2 | 2 | 2 | 3 | 2 | 2 |
| 3 | Azərbaycan dili - dövlət dili kimi | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 4 | Xarici dil | 1 | 1 | 1 | 1 | 3 | 3 | 3 | 3 | 2 | 4 | 4 |
| 5 | İkinci xarici dil | | | | | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 |
| 6 | Riyaziyyat | 4 | 4 | 4 | 4 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 |
| 7 | İnformatika | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 |
| 8 | Azərbaycan tarixi | | | | | 2 | 1 | 1 | 2 | 2 | 2 | 2 |
| 9 | Ümumi tarix | | | | | | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| 10 | Fizika | | | | | | 1 | 2 | 2 | 3 | 2 | 2 |
| 11 | Kimya | | | | | | | 1 | 2 | 2 | 2 | 2 |
| 12 | Biologiya | | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 13 | Coğrafiya | | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 14 | Həyat bilgisi | 1 | 1 | 2 | 2 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 15 | Texnologiya | 1 | 1 | 2 | 2 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 16 | Fiziki tərbiyə | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 17 | Musiqi | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 18 | Təsviri incəsənət | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 19 | Çağırışaqədərki hazırlıq | | | | | | | | | | 2 | 2 |
| **Cəmi:** | | **23** | **24** | **26** | **26** | **27** | **31** | **33** | **34** | **34** | **35** | **35** |
| Dərsdənkənar məşğələlər | | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 | 2 | 2 |
| **Yekun:** | | **24** | **25** | **27** | **27** | **28** | **32** | **34** | **36** | **36** | **37** | **37** |

**2018-2019-cu dərs ilində ləzgi dili öyrədilən ümumtəhsil məktəblərinin I-XI sinifləri üçün tədris planı (tədris Azərbaycan dilində)**

**Əlavə 4**

| № | Fənnin adı | Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI |
| 1 | Azərbaycan dili | 8 | 9 | 9 | 9 | 5 | 4 | 4 | 3 | 2 | 3 | 3 |
| 2 | Ədəbiyyat | | | | | 2 | 2 | 2 | 2 | 3 | 2 | 2 |
| 3 | Ləzgi dili | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 4 | Xarici dil | 1 | 1 | 1 | 1 | 2 | 2 | 2 | 2 | 1 | 4 | 4 |
| 5 | İkinci xarici dil | | | | | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 |
| 6 | Riyaziyyat | 4 | 4 | 4 | 4 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 |
| 7 | İnformatika | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 |
| 8 | Azərbaycan tarixi | | | | | 2 | 1 | 1 | 2 | 2 | 2 | 2 |
| 9 | Ümumi tarix | | | | | | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| 10 | Fizika | | | | | | 1 | 2 | 2 | 3 | 2 | 2 |
| 11 | Kimya | | | | | | | 1 | 2 | 2 | 2 | 2 |
| 12 | Biologiya | | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 13 | Coğrafiya | | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 14 | Həyat bilgisi | 1 | 1 | 2 | 2 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 15 | Texnologiya | 1 | 1 | 2 | 2 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 16 | Fiziki tərbiyə | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 17 | Musiqi | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 18 | Təsviri incəsənət | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 19 | Çağırışaqədərki hazırlıq | | | | | | | | | | 2 | 2 |
| **Cəmi:** | | **21** | **22** | **24** | **24** | **25** | **29** | **31** | **32** | **32** | **33** | **33** |
| Dərsdənkənar məşğələlər | | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 | 2 | 2 |
| **Yekun:** | | **22** | **23** | **25** | **25** | **26** | **30** | **32** | **34** | **34** | **35** | **35** |

**2018-2019-cu dərs ilində ləzgi dili öyrədilən ümumtəhsil məktəblərinin I-XI sinifləri üçün tədris planı (tədris rus dilində)**

**Əlavə 5**

| № | Fənnin adı | Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI |
| 1 | Rus dili | 8 | 9 | 9 | 9 | 5 | 4 | 4 | 3 | 2 | 3 | 3 |
| 2 | Ədəbiyyat | | | | | 2 | 2 | 2 | 2 | 3 | 2 | 2 |
| 3 | Azərbaycan dili - dövlət dili kimi | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 4 | Ləzgi dili | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 5 | Xarici dil | 1 | 1 | 1 | 1 | 2 | 2 | 2 | 2 | 1 | 4 | 4 |
| 6 | İkinci xarici dil | | | | | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 |
| 7 | Riyaziyyat | 4 | 4 | 4 | 4 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 |
| 8 | İnformatika | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 |
| 9 | Azərbaycan tarixi | | | | | 2 | 1 | 1 | 2 | 2 | 2 | 2 |
| 10 | Ümumi tarix | | | | | | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| 11 | Fizika | | | | | | 1 | 2 | 2 | 3 | 2 | 2 |
| 12 | Kimya | | | | | | | 1 | 2 | 2 | 2 | 2 |
| 13 | Biologiya | | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 14 | Coğrafiya | | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 15 | Həyat bilgisi | 1 | 1 | 2 | 2 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 16 | Texnologiya | 1 | 1 | 2 | 2 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 17 | Fiziki tərbiyə | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 18 | Musiqi | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 19 | Təsviri incəsənət | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 20 | Çağırışaqədərki hazırlıq | | | | | | | | | | 2 | 2 |
| **Cəmi:** | | **23** | **24** | **26** | **26** | **27** | **31** | **33** | **34** | **34** | **35** | **35** |
| Dərsdənkənar məşğələlər | | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 | 2 | 2 |
| **Yekun:** | | **24** | **25** | **27** | **27** | **28** | **32** | **34** | **36** | **36** | **37** | **37** |

**2018-2019-cu dərs ilində azsaylı xalqların dilləri öyrədilən ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün tədris planı (tədris Azərbaycan dilində)**

**Əlavə 6**

| № | Fənnin adı | Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı | | | |
|---|---|---|---|---|---|
| | | I | II | III | IV |
| 1 | Azərbaycan dili | 8 | 9 | 9 | 9 |
| 2 | «-----» dili | 1 | 1 | 1 | 1 |
| 3 | Xarici dil | 1 | 1 | 1 | 1 |
| 4 | Riyaziyyat | 4 | 4 | 4 | 4 |
| 5 | İnformatika | 1 | 1 | 1 | 1 |
| 6 | Həyat bilgisi | 1 | 1 | 2 | 2 |
| 7 | Texnologiya | 1 | 1 | 2 | 2 |
| 8 | Fiziki tərbiyə | 2 | 2 | 2 | 2 |
| 9 | Təsviri incəsənət | 1 | 1 | 1 | 1 |
| 10 | Musiqi | 1 | 1 | 1 | 1 |
| **Cəmi:** | | **21** | **22** | **24** | **24** |
| Dərsdənkənar məşğələlər | | 1 | 1 | 1 | 1 |
| **Yekun:** | | **22** | **23** | **25** | **25** |

**2018-2019-cu dərs ilində azsaylı xalqların dilləri öyrədilən ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün tədris planı (tədris rus dilində)**

**Əlavə 7**

| № | Fənnin adı | Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı | | | |
|---|---|---|---|---|---|
| | | I | II | III | IV |
| 1 | Rus dili | 8 | 9 | 9 | 9 |
| 2 | «---------» dili | 1 | 1 | 1 | 1 |
| 3 | Azərbaycan dili (dövlət dili kimi) | 2 | 2 | 2 | 2 |
| 4 | Xarici dil | 1 | 1 | 1 | 1 |
| 5 | Riyaziyyat | 4 | 4 | 4 | 4 |
| 6 | İnformatika | 1 | 1 | 1 | 1 |
| 7 | Həyat bilgisi | 1 | 1 | 2 | 2 |
| 8 | Texnologiya | 1 | 1 | 2 | 2 |
| 9 | Fiziki tərbiyə | 2 | 2 | 2 | 2 |
| 10 | Təsviri incəsənət | 1 | 1 | 1 | 1 |
| 11 | Musiqi | 1 | 1 | 1 | 1 |
| **Cəmi:** | | **23** | **24** | **26** | **26** |
| Dərsdənkənar məşğələlər | | 1 | 1 | 1 | 1 |
| **Yekun:** | | **24** | **25** | **27** | **27** |

**Əlavə 8**

# Tədris planlarına dair qeydlər

**1.** Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində tədrisi nəzərdə tutulan xarici dil (dillər) ingilis, alman, fransız, rus, ərəb, fars dilləri arasından seçilir.

**2.** Tədris dilindən asılı olmayaraq, bütün ümumtəhsil məktəblərində xarici dilin tədrisi I (birinci) sinifdən başlanır. Tədrisi I (birinci) sinifdən başlanan xarici dil şagirdin məktəbdə öyrəndiyi əsas xarici dil hesab edilir.

**3.** Xarici dilin (dillərin) tədrisi üçün məktəbdə müvafiq pedaqoji kadr potensialının və maddi-tədris bazanın olması zəruri şərt hesab edilir.

**4.** Bu "Qeydlər"in 3-cü bəndində nəzərdə tutulan şərt ödənilməklə bir neçə xarici dil tədris olunan məktəbdə övladı üçün müvafiq xarici dil onun valideyni (digər qanuni nümayəndəsi) tərəfindən seçilir. Valideynlərin (digər qanuni nümayəndələrin) seçimi ilə bağlı zərurət yaranarsa, eyni sinifdə iki xarici dil qrupu təşkil oluna bilər. Bu halda aşağıdakılar nəzərə alınmalıdır:

4.1. Həmin sinfin bu "Qeydlər"in 21-ci bəndində nəzərdə tutulmuş qayda üzrə 2 (iki) qrupa bölünməsi.

4.2. Bu qrupların dil seçiminə görə bərabər şagird sayı, yaxud qismən az say fərqi ilə komplektləşdirilməsi.

4.3. Məktəbdə həmin xarici dillərin hər biri üzrə ən azı iki nəfər müəllimin olması.

**5.** Ümumtəhsil məktəblərində ikinci xarici dil V (beşinci) sinifdən etibarən tədris olunur.

**6.** Müvafiq pedaqoji kadr potensialı və tədris bazası olduğu halda, ikinci xarici dilin tədrisindən və öyrənilməsindən imtina olunması yolverilməzdir.

**7.** İkinci xarici dilin tədrisini təmin etmək məqsədilə əməkhaqqı mövcud qaydada ödənilməklə digər təhsil müəssisələrindən müəllim (mütəxəssis) dəvət oluna bilər.

**8.** I və V (birinci və beşinci) siniflərdən başlayaraq tədris edilən xarici dillərin növbəti siniflərdə davam etdirilməsinə yol verilmir.

**9.** Əsas xarici dil tədris olunan, lakin ikinci xarici dil tədris edilməyən məktəblərdə ikinci xaricə dilə ayrılan saat (saatlar) əsas xarici dilin öyrənilməsinə verilir.

**10.** Xarici dil (dillər) üzrə müvafiq pedaqoji kadr potensialı olmadığı halda, əsas və ikinci xarici dillərə ayrılan saatlar aşağıdakı fənlər üzrə ixtisaslı müəllimlərin olduğu məktəblərdə qeyd edilən fənlərin tədrisinə verilir:

10.1. İbtidai siniflərdə tədris dilinin;

10.2. V-VIII (beşinci-səkkizinci) siniflərdə hər birinə 1 (bir) saat olmaqla tədris dilinin, "Ədəbiyyat", "Riyaziyyat" və "Azərbaycan tarixi" fənlərinin;

10.3. IX (doqquzuncu) sinifdə hər birinə 1 (bir) saat olmaqla tədris dilinin, "Riyaziyyat" və "Azərbaycan tarixi" fənlərinin;

10.4. X-XI (onuncu-onbirinci) siniflərdə hər birinə 1 (bir) saat olmaqla tədris dilinin, "Riyaziyyat", "Kimya", "Fizika", "Coğrafiya" və "Azərbaycan tarixi" fənlərinin.

**11.** Qeyd olunan fənlər üzrə məktəbdə ixtisaslı müəllim olmadıqda, nəzərdə tutulan saat (saatlar) məktəb pedaqoji şurasının qərarına əsasən digər fənnin (fənlərin) tədrisinə verilir.

**12.** Tərkibində III (üçüncü) və ya IV (dördüncü) sinif olan komplekt siniflərdə tədris dili 10 (on) saat, "Həyat bilgisi" və "Texnologiya" fənlərinin hər biri 2 (iki) saat tədris olunur.

**13.** Dərsdənkənar məşğələ qrupları və dərnəklər şagirdlərin sayı 8 (səkkiz) nəfərdən az olmamaqla komplektləşdirilir.

**14.** Hər hansı bir sinifdə şagirdlərinin sayı dərsdənkənar məşğələ qrupu təşkil etmək üçün müəyyən edilmiş normadan az olduqda şagirdlərin meyil və marağı nəzərə alınmaqla həmin dərsdənkənar məşğələ qrupuna yaxın siniflərin (məsələn, V-VI, VI-VII, VII-VIII və s.) şagirdlərin cəlbinə icazə verilir.

**15.** I (birinci) sinifdə dərsdənkənar məşğələlərə ayrılan 1 (bir) saat dərs cədvəlinə daxil edilməklə "Riyaziyyat" fənninin tədrisinə verilir.

**16.** II-IV (ikinci-dördüncü) siniflərdə dərsdənkənar məşğələlərə ayrılan 1 (bir) saat müəyyən edilmiş məktəblərdə dərs cədvəlinə daxil olunmaqla "Şahmat" fənninin tədrisinə, "Şahmat" fənni keçilməyən məktəblərdə "Riyaziyyat" fənninin tədrisinə verilir.

**17.** I-IV siniflərdə dərsdənkənar məşğələlərə ayrılan saat hesabına tədris olunan "Riyaziyyat" fənni üzrə müvafiq əlavə mövzular aidiyyəti fənn müəllimlərinin iştirakı ilə təhsil şöbəsinin (idarəsinin) metodkabineti tərəfindən hazırlanıb təsdiq edilir.

**18.** Bütün azsaylı xalqların kompakt yaşadıqları ərazilərdəki ümumtəhsil məktəblərinin I (birinci) sinfində, "Şahmat" fənni keçilməyən məktəblərin isə II-IV (ikinci-dördüncü) siniflərində, habelə ləzgi dili tədris olunan məktəblərin V-IX siniflərində valideynlər və təhsilalanlar arzu etdikləri halda, dərsdənkənar məşğələlərə ayrılan 1 (bir) saat dərs cədvəlinə daxil edilməklə onların ana dilinin tədrisinə verilə bilər.

**19.** Füzuli, Beyləqan, Ağcabədi, Ağdam, Tərtər, Goranboy, Xocavənd, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Qazax, Ağstafa, Kəlbəcər, Laçın, Cəbrayıl, Şuşa, Qubadlı, Xocalı, Zəngilan rayonlarının bütün ümumtəhsil məktəblərinin, habelə Naxçıvan MR-in Ermənistanla sərhəddə yerləşmiş ümumtəhsil məktəblərinin VI (altıncı) siniflərində dərsdənkənar məşğələlərə ayrılmış vaxt hesabına həftədə 1 (bir) saat olmaqla ikinci yarımildə "Mina təhlükəsinə dair maarifləndirmə" adlı fakültativ kurs tədris olunur.

Qeyd edilən rayonların bütün ümumtəhsil məktəblərinin və Naxçıvan MR-in Ermənistanla sərhəddə yerləşmiş ümumtəhsil məktəblərinin IV (dördüncü) siniflərində isə həmin kurs üzrə mövzular "Həyat bilgisi" fənninin daxilində keçilir.

**20.** VIII (səkkizinci) sinifdə dərsdənkənar məşğələlərə ayrılan saatlardan 1 (bir) saatı dərs cədvəlinə daxil edilməklə "Qarabağın tarixi" kursunun tədrisinə ayrılır.

**21.** Müvafiq maddi-tədris baza və ixtisas müəllimləri olduğu halda, şagirdlərin sayı 20 (iyirmi) və daha çox olan siniflər aşağıdakı fənlərin tədrisində iki qrupa bölünür:

21.1. Tədris rus və gürcü dillərində aparılan ümumtəhsil məktəblərinin I-XI (birinci-onbirinci) siniflərində Azərbaycan dili (dövlət dili kimi).

21.2. Tədris dilindən asılı olmayaraq, bütün ümumtəhsil məktəblərinin I-XI (birinci-onbirinci) siniflərində xarici dil, V-XI (beşinci-onbirinci) siniflərində ikinci xarici dil.

21.3. Bütün ümumtəhsil məktəblərinin V-XI (beşinci-onbirinci) siniflərində "Fiziki tərbiyə", V-IX (beşinci-doqquzuncu) siniflərində "Texnologiya".

21.4. Ümumtəhsil məktəblərinin X-XI (onuncu-onbirinci) siniflərində "İnformatika" fənni üzrə praktik məşğələlər.

21.5. Tədris ilinin birinci yarısında hər hansı bir səbəbdən bölünən fənlər üzrə siniflərdə şagirdlərin sayı azaldıqda və ya artdıqda tədris ilinin ikinci yarımilindən müvafiq olaraq qruplar bir sinifdə birləşdirilməklə və ya siniflər iki qrupa bölünməklə tədris davam etdirilir.

**22.** Kompüter kabineti olmayan ümumtəhsil məktəblərində "İnformatika" fənni üzrə praktik məşğələ keçilmir.

**23.** X-XI (onuncu-onbirinci) siniflərdə "Çağırışaqədərki hazırlıq" fənn proqramlarına əsasən, tibbi biliklərin əsaslarına aid mövzular bütün sinfə tədris olunur.

**24.** Ümumtəhsil məktəbində dərs məşğələləri sentyabrın 15-də başlayıb iyunun 14-də başa çatır. Dərs ili iki yarımilə bölünür:

24.1. birinci yarımil - 15 sentyabr - 26 yanvar;

24.2. ikinci yarımil - 1 fevral - 14 iyun.

**25.** Dərs ili ərzində aşağıdakı tətillər müəyyən edilir:

25.1. 5 gün payız tətili (16-20 noyabr);

25.2. 5 gün qış tətili (27-31 yanvar).

25.3. İbtidai siniflər üçün 5 günlük əlavə yaz tətili (1-5 may).

# Azsaylı xalqların uşaqları üçün məktəbəhazırlıq qruplarının 2018-2019-cu dərs ilinə aid tədris (məşğələ) planının təsdiqi barədə

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində azsaylı xalqların uşaqlarından ibarət məktəbəhazırlıq qruplarında təhsil prosesinin təşkili və tənzimlənməsini təmin etmək məqsədi ilə "Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 8.10-1-ci və 13.5-ci bəndlərini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində azsaylı xalqların uşaqları üçün təşkil edilən məktəbəhazırlıq qruplarının 2018-2019-cu dərs ilinə aid tədris (məşğələ) planı və tədris (məşğələ) planına dair "Qeydlər" təsdiq edilsin (1 və 2 nömrəli əlavələr).

**2.** İnformasiya şöbəsi (E.Məmmədov) əmrin əlavələrlə birlikdə "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını və Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**3.** Əmrin icrasına nəzarət nazir müavini Məhəbbət Vəliyevaya həvalə olunsun.

**Ceyhun BAYRAMOV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*20 iyul 2018-ci il*

*Azərbaycan Respublikası təhsil nazirinin 20.07.2018-ci il tarixli, F-529 nömrəli əmrinə 1 nömrəli əlavə*

**Azsaylı xalqların uşaqları üçün məktəbəhazırlıq qruplarının tədris (məşğələ) planı**

| № | Dərs məşğələləri | Həftəlik məşğələ saatlarının miqdarı |
|---|---|---|
| 1. | Ətraf aləmlə tanışlıq | 1 |
| 2. | Savad təliminə hazırlıq və nitq inkişafı | 4 |
| 3. | Bədii təfəkkürün inkişafı | 1 |
| 4. | Məntiqi və riyazi təfəkkürün inkişafı | 2 |
| 5. | Təsviri fəaliyyət | 1 |
| 6. | Musiqi | 1 |
| 7. | Fiziki mədəniyyət | 2 |
| | **Cəmi:** | **12** |

*Azərbaycan Respublikası təhsil nazirinin 20.07.2018-ci il tarixli, F-529 nömrəli əmrinə 2 nömrəli əlavə*

### Tədris (məşğələ) planına dair qeydlər

**1.** Azsaylı xalqların uşaqları üçün təşkil edilən məktəbəhazırlıq təhsili, əsasən, həmin uşaqların seçilən tədris dili üzrə nitq bacarıqlarının formalaşdırılmasını, eləcə də məktəbəhazırlıqla bağlı digər zəruri məsələlərin təmin olunmasını nəzərdə tutur.
**2.** Məktəbəhazırlıq qruplarına 5 yaşı həmin il tamam olan uşaqlar qəbul edilirlər.
**3.** Məktəbəhazırlıq qruplarında uşaqların sıxlığı aşağıdakı kimi müəyyənləşdirilir:
- qəsəbə və kəndlərdə yerləşən ümumtəhsil məktəbləri üçün - ən azı 10 uşaq;
- şəhərlərdə yerləşən ümumtəhsil məktəbləri üçün - ən azı 15 uşaq.

**4.** Dövlət ümumtəhsil məktəblərində yaradılan məktəbəhazırlıq qrupunda uşaqların sayının 30 nəfərdən artıq olmasına yol verilmir.
**5.** Məktəbəhazırlıq qruplarında məşğələlər oktyabrın 1-də başlayır və mayın 31-də başa çatır.
**6.** Məktəbəhazırlıq məşğələləri həftədə 4 (dörd) gün keçilir. Bir gün ərzində 3 (üç) məşğələ tədris olunur.
**7.** Bir məşğələnin müddəti 30 dəqiqə, məşğələlərarası fasilə 10 dəqiqə müəyyən edilir. Zehni gərginlik tələb edən məşğələlərdə, bir qayda olaraq, 3 idman dəqiqəsi keçirilir.
**8.** Məktəbəhazırlıq qruplarında təhsil alan uşaqlara ev tapşırıqları nəzərdə tutulmur.
**9.** Məktəbəhazırlıq qruplarında məşğələlərə davamiyyət və tədris olunan mövzu müvafiq sinif jurnalında qeyd edilir, uşaqların təlim nailiyyətləri şifahi formada qiymətləndirilir və bu barədə valideynlərə məlumat verilir.
**10.** Məktəbəhazırlıq qruplarında məşğələlər yalnız ibtidai sinif müəllimi ixtisaslı və müəyyən iş təcrübəsinə malik müəllim tərəfindən aparılır.
**11.** Məktəbəhazırlıq qruplarında dərs ili iki yarımilə bölünür:
I yarımil: 1 oktyabr-26 yanvar;
II yarımil: 1 fevral-31 may.
**12.** Dərs ili ərzində aşağıdakı tətillər müəyyən olunur:
- 5 gün payız tətili (16-20 noyabr);
- 5 gün qış tətili (27-31 yanvar);
- 5 gün əlavə tətil (1-5 may).

# "Apardığımız tədqiqatlar çox perspektivli sahələri əhatə edir"

**Oruc MUSTAFAYEV**

## *İsmayıl İsmayılov:* "Gənc alimlərin dünya arenasında təmsil olunması daha çox onların özlərindən asılıdır"

Qloballaşan dünyanın tələbləri cəmiyyətin inkişafının mühüm hərəkətverici qüvvələrindən hesab olunan insan kapitalının hərtərəfli inkişafını şərtləndirir. Müasir düşüncəli, innovasiyalar mühitində rəqabət qabiliyyəti ilə seçilən, yüksək tədqiqatçılıq əzminə malik gənc alimlərin yetişdirilməsi ölkəmiz qarşısında duran mühüm vəzifələrdən biridir. Ölkəmizdə gənclərin elmi potensialının artırılması, onların fundamental elmi tədqiqat işlərinin səmərəli aparılması, yaradıcı qabiliyyətlərinin artırılması istiqamətində çox mühüm addımlar atılır. Hazırda bu proses Azərbaycan elminin gəncləşməsi ilə müşayiət olunur. Budəfəki həmsöhbətimiz Azərbaycanın kimya elmi sahəsində ən gənc elmlər doktoru olan İsmayıl İsmayılovdur.

*- Orta məktəbdə daha çox hansı fənlərə maraq göstərirdiniz? Sizdə elmə, tədqiqatçılığa nə vaxtdan maraq yaranıb?*

- Orta məktəbdə riyaziyyat, kimya, fizika, həndəsə kimi dəqiq fənlərə marağım daha çox olub. Çətin məsələləri həll etməyi çox xoşlayırdım və elə bu səbəbdən məktəbin kimya üzrə olimpiada komandasının üzvü idim. Məhz beynəlxalq olimpiadaya hazırlaşarkən akademik Vaqif Abbasovun elmə, tədqiqatçılığa marağımın oyanmasında təsiri böyük olub və illər sonra elmlər doktorluğu üzrə dissertasiya işimdə elmi məsləhətçim oldu. Eyni zamanda, ailədə atam özü də elm adamıdır və bu yolu seçməyimdə onun rolu böyükdür. Moskva Dövlət Universitetində oxuyarkən bu həvəs məndə daha da artdı. Bunun üçün mənə heç bir zaman öz dəstəyini əsirgəməyən MDU-nun kimya fakültəsinin dekanı, akademik V.V.Luninə və doktorluq işim üzrə elmi məsləhətçim olmuş professor E.N.Efremenkoya, fəlsəfə doktorluğu üzrə elmi rəhbərlərim olmuş professor V.F.Tretyakova və professor V.A.Matışaka öz minnətdarlığımı bildirirəm.

Qeyd edim ki, olimpiadaya hazırlaşarkən professorlar Namiq Şıxəliyev, İqrar Nəzərov, Mütəllim Abbasov, Nasim Abışovun da üzərimdə əməyi böyükdür.

*- Necə bilirsiniz, şagirdləri elmi tədqiqatçılığa yönləndirmək üçün məktəblərdə hansı işlər görülməlidir?*

- Yəqin ki, məktəblərdə keçilən dərslərin, eyni zamanda, təcrübələrin laboratoriyalarda müəllimlərin nəzarəti ilə şagirdlərin özləri tərəfindən aparılması, fərqli elmi müsabiqələrə cəlb olunmaları onların bu sahəyə həvəslənməsində mühüm rol oynaya bilər. Bu baxımdan, ölkəmizdə keçirilən "Sabahın alimləri" Respublika müsabiqəsi buna çox gözəl nümunə və imkandır. Mən artıq son üç ildir ki, bu müsabiqədə elmi rəhbər kimi iştirak edirəm və hər il şagirdlərin daha da həvəslə iştirak etdiklərini müşahidə etmişəm. "Baku British School", Bakı Avropa Liseyi və 6 nömrəli məktəb-liseydən olan şagirdlərin elmi rəhbəri olmuşam. Layihələrimiz 3-cü, 2-ci, 1-ci yerlərə layiq görülüb. Qeyd edim ki, hətta bu həvəsləndirmə məktəbdən öncə və ya aşağı siniflərdə də ola bilər. Bakıda bu sahədə fəaliyyət göstərən "Uşaqlar üçün mühəndislik" adlanan bir mərkəzlə tanış oldum və onların gördükləri işlər çox xoşuma gəldi. Uşaqların düşündürücü, yaradıcılıq qabiliyyətlərini üzə çıxaracaq və inkişaf etdirəcək fərqli oyunlar təşkil edir, robotların və konstruksiyaların qurulmasında bacarıqlarını artırırlar. İnanıram ki, bu, uşaqlarda yaradıcılıq sahəsinə çox böyük həvəs oyadır. Elm özü isə bir yaradıcılıqdır. Bu uşaqlardan gələcəyin güclü tədqiqatçıları və mühəndisləri yetişə bilər.




*- Hazırda hansı elmi istiqamətdə çalışırsınız?*

- Bu günə kimi apardığım tədqiqat işləri çox fərqli istiqamətlərdədir. Ancaq onu da qeyd etmək lazımdır ki, aspirantura və doktorantura dissertasiya işlərim günümüzdə xüsusi önəm verilən ekoloji problemlərin həllinə yönəlmiş mövzulardır. Bu gün artıq bir elmlər doktorunun və üç fəlsəfə doktorunun dissertasiya işi üzrə rəhbəriyəm. Apardığımız tədqiqatlar Azərbaycan üçün çox perspektivli sahələri əhatə edir. Bunlar ekoloji əlverişli və iqtisadi cəhətdən sərfəli olan xammallar əsasında neft-kimya sənayesində istifadə üçün çoxfunksiyalı reagentlərin alınması, Azərbaycan neftinin yağ distillatlarının təmizlənməsi və müxtəlif bitkilərdən ekstraksiya üsulu ilə alınmış efir yağlarının əlavəsi ilə kosmetik, tibbi preparatlar kimi istifadə oluna biləcək kompozisiyaların hazırlanması, kənd təsərrüfatında istifadə üçün boy stimullaşdırıcı maddələrin və yeni gübrələrin sintezidir.

*- Bir gənc alim kimi son zamanlar Azərbaycanda elmin inkişafı istiqamətində görülən işləri necə qiymətləndirirsiniz? Ölkəmizdə elmin inkişaf səviyyəsi sizi qane edirmi?*

- Bəli, əminliklə deyə bilərəm ki, Azərbaycanda bu gün elmin inkişafı istiqamətində çox böyük işlər görülür. Son illər gənclərin elmə gəlməsini xüsusi təşviq edən AMEA-nın prezidenti, akademik Akif Əlizadənin dəstəyini xüsusi qeyd etmək istərdim. AMEA-nın vitse-prezidenti, akademik Nərgiz Paşayevanın 2013-cü ildən Oksford Universitetində fəaliyyətə başlamış Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin Universitetin tərkibində daimi mövcudluğu haqqında kontraktı elmin inkişafı və dünya arenasında tanınması istiqamətində atılmış mühüm addımlardandır. Bu yaxınlarda Gənc Alimlərim I Qurultayı keçirildi və mən orada çıxış etdim. Çıxışım zamanı da qeyd etdiyim kimi, "gənc yaşlarımda əldə etdiyim nailiyyətlərin qürurunu mənə yaşatmış ulu öndər Heydər Əliyevin ruhu qarşısında baş əyirəm. Çox hörmətli Prezidentimiz İlham Əliyev cənablarına, gəncliyin böyük himayəçisi olan Birinci vitse-prezident xanım Mehriban Əliyevaya sonsuz minnətdarlığımı bildirirəm. Mənə mayak olmuş müəllimlərimə, elmi rəhbərlərimə və mənə gözəl həyat dərsi vermiş valideynlərimə minnətdaram".

*- Gənc alim və mütəxəssislərimizin dünya arenasında təmsil olunması üçün hansı stimullaşdırıcı tədbirləri vacib hesab edirsiniz?*

- Stimullaşdırıcı tədbirlər birinci növbədə maddi məsələlərdə köməklik göstərilməsi ola bilər. Gənc alim və mütəxəssislərin dünya arenasında təmsil olunması daha çox onların özlərindən, apardıqları tədqiqatların günümüzdə perspektivli olub-olmamasından asılıdır. Əgər aparılan tədqiqatlardan əldə olunan nəticə bir yenilikdirsə və günümüzdə buna tələbat varsa, çox asanlıqla maddi dəstək də tapılacaq.

*- Gənc alimlərimiz qarşısında duran hansı çətinlikləri qeyd edə bilərsiniz? Elmin inkişafına müsbət təsir göstərə bilən hansı mühüm addımları vacib hesab edirsiniz?*

- Çətinliklər hər bir sahədə mövcuddur. Gənc alimlər ilk növbədə bilməlidirlər ki, onların getdikləri yol çox şərəfli və hər kəsin gedə biləcəyi asan bir yol deyil. Yəqin ki, çətinliklərdən xüsusən sosial məsələlərin yaxşılaşdırılması qeyd edilə bilər ki, bu sahədə AMEA-da artıq çox böyük işlər görülür. Buna nümunə olaraq hazırda tikilən "Science City" şəhərciyidir ki, orada AMEA-nın əməkdaşlarına xüsusi güzəştli şərtlərlə evlər təklif olunur.

Elmin inkişafına müsbət təsir göstərə biləcək addımlardan biri kimi elmin kommersiyalaşdırılmasını qeyd edərdim. Yenə də qeyd edim ki, bu sahədə də AMEA-da işlər görülür və AMEA-nın Yüksək Texnologiyalar Parkı (YTP) buna nümunədir. Alimlər əldə etdikləri mühüm nəticələri burada tətbiqetmə imkanına sahibdirlər ki, bununla da maddi gəlirləri ola bilər.

*- Elm və təhsilin inteqrasiyasını necə görürsünüz?*

- Təkcə elm və təhsilin deyil, təhsil, elm və sənayenin inteqrasiyasını vacib sayardım. Çünki bu halda təhsillə başlanan yol tətbiqlə nəticəsini əldə etmiş olacaq. AMEA-da magistratura təhsilinin başlanması, AMEA YTP-nin yaradılması ilə təhsil-elm-sənaye mühiti AMEA-da uğurla qurulub. Magistrantların tədris müddətində təhsillə yanaşı, nüfuzlu alimlərlə birgə elmi təcrübələrdə iştirak etmələri və tədqiqatlar aparmaları onlarda elmə həvəsi gücləndirir və həyatda iş sahəsində bu istiqamətdə seçim etmələrinə təsir edir. Eyni zamanda, bu magistrantlar oxuduqları müddətdə AMEA-nın institutlarında işlə təmin olunurlar və AMEA YTP-də real sənaye şəraiti ilə tanış olurlar.

### Tanıtım

1984-cü il avqustun 6-da Bakı şəhərində ziyalı ailəsində anadan olub. Əslən Qubadlıdandır. Orta məktəbi 2001-ci ildə fərqlənmə attestatı ilə bitirib. 2001-ci ildə Moskvada keçirilən Beynəlxalq Mendeleyev Kimya olimpiadasının qalibi kimi M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin kimya fakültəsinə imtahansız qəbul olunub. 2005-ci ildə universitetin 4-cü kursunda oxuyan zaman 9-11-ci siniflər arasında keçirilən Respublika kimya olimpiadasının suallarının tərtib olunmasında fəal iştirak edib. 2006-cı ildə MDU-nun kimya fakültəsinin "Neft kimyası və üzvi kataliz" kafedrasında diplom işini müvəffəqiyyətlə müdafiə edib, universiteti kimyaçı mütəxəssis olaraq bitirib. Moskvada təhsilini dövlət xətti ilə aspirantura pilləsində davam etdirərək, 2011-ci ildə kimya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə edib. Daha sonra dövlət xətti ilə yenə də Moskvada MDU-da kimya fakültəsində və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) akademik Y.H. Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunda (NKPİ) yerinə yetirdiyi dissertasiya işini 2017-ci ildə 32 yaşında müdafiə edərək, kimya üzrə elmlər doktoru elmi dərəcəsini alıb.

O, ümumilikdə 87 elmi əsərin, o cümlədən 1 patentin və 1 monoqrafiyanın müəllifidir. Elmi əsərlərinin 40-dan çoxu dünyanın nüfuzlu elmi jurnallarında çap olunub. Hazırda AMEA NKPİ-də Baş texnoloq vəzifəsində işləyir.

# "Turkish Aerospace"in icraçı direktoru AzTU-da olub

Türkiyənin "Turkish Aerospace" şirkətinin icraçı direktoru Təməl Kotul və şirkətin nümayəndələri Azərbaycan Texniki Universitetində (AzTU) olublar. Qonaqları qəbul edən AzTU-nun rektor əvəzi, professor Xalıq Yahudov son illər Azərbaycanda sənayenin inkişafı ilə bağlı görülən işlərdən və bu prosesdə ali təhsil müəssisələrinin, xüsusilə Azərbaycan Texniki Universitetinin iştirakından danışıb. Rektor əvəzi bildirib ki, qabaqcıl texnologiyaların mənimsənilməsi üçün AzTU ilə dünyanın inkişaf etmiş müəssisələri, nüfuzlu universitetləri arasında səmərəli əməkdaşlıq yaradılıb və mütəmadi olaraq beynəlxalq təhsil proqramları çərçivəsində müəllim-tələbə mübadilələri, həmçinin elmi ezamiyyətlər həyata keçirilir. Qeyd olunub ki, AzTU alimlərinin ixtiralarının istehsal müəssisələrində tətbiqinə yerli və xarici sərmayədarlar böyük maraq göstərirlər.

"Turkish Aerospace"in icraçı direktoru Təməl Kotul da rəhbərlik etdiyi şirkətin mütəxəssislərinin AzTU alimlərinin araşdırmaları, ixtira və patentləri ilə maraqlandığını bildirib. Təməl Kotul universitetin elmi potensialından yararlanmaq üçün "Turkish Aerospace" şirkəti ilə AzTU arasında daimi əməkdaşlıq niyyətlərinin və perspektivinin mövcud olduğunu qeyd edib.

# Azərbaycan Təhsil Şəbəkəsi genişlənir

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın Fəaliyyət Planına uyğun olaraq, 2018-ci ilin yanvar-iyun ayları ərzində ölkə üzrə 46 təhsil müəssisəsi Azərbaycan Təhsil Şəbəkəsinə (ATŞ) qoşulub.

İndiyədək ATŞ-yə qoşulmuş 2370 təhsil müəssisəsi yüksək sürətli internetlə təmin olunub, onların şəbəkə daxilində bir-biri və Təhsil Nazirliyinin digər qurumları ilə kommunikasiyası yaradılıb. 2018-2019-cu tədris ilində əlavə olaraq 485 təhsil müəssisəsinin də ATŞ-yə qoşulması nəzərdə tutulub. Hazırda ATŞ-yə qoşulmuş ümumi təhsil müəssisələrində təhsil alan şagirdlərin sayı ölkə üzrə ümumi şagirdlərin 82%-nə və pedaqoji heyətin 72%-nə bərabərdir.

ATŞ ölkədə tədris prosesini daha effektiv qurmağa imkan yaratmaqla yanaşı, məsafədən asılı olmayaraq, təhsildə müsbət təcrübənin yayılmasını təmin edir. Artıq ucqar yaşayış məntəqələrindəki məktəblərin müəllim və şagirdləri də ATŞ vasitəsilə müvafiq elektron resurslardan istifadə edə bilirlər.

İnternetin geniş miqyasda informasiya mənbəyi olduğunu nəzərə alaraq, bu məlumatların yaş məhdudiyyəti olmadan nəzarətsiz yayılmasının qarşısının alınması və uşaqların arzuolunmaz məlumatlara çıxışının məhdudlaşdırılması məqsədi ilə ATŞ-yə qoşulmuş təhsil müəssisələrində internet filtrasiya sistemi tətbiq olunur. Bu texnologiya internet-axtarış sistemlərində müxtəlif dillərdə 60-a qədər kateqoriya üzrə zərərli informasiyanın axtarışını məhdudlaşdırır və uşaqların zərərli məzmundan maksimal müdafiəsini təmin etməyə imkan verir.

Onu da qeyd edək ki, cari ilin 22 iyun tarixində Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası arasında "Avropanın elm və təhsil qurumları üçün kompüter şəbəkəsi"nin (GEANT) yaradılması ilə bağlı əməkdaşlıq müqaviləsi imzalanıb. Müqavilədə Avropa Birliyinin "EaPConnect" layihəsi çərçivəsində göstərdiyi dəstəyin Azərbaycanın elm və təhsil müəssisələri tərəfindən səmərəli istifadəsinin təmin edilməsi, Avropanın elm və təhsil qurumları ilə əməkdaşlıq əlaqələrinin gücləndirilməsi və "EaPConnect" layihəsi çərçivəsində GEANT Şəbəkəsinə qoşularaq institutun əldə etdiyi genişzolaqlı şəbəkə xidmətlərinin ölkənin ali təhsil müəssisələrinin istifadəsinə təqdim edilməsi məsələləri öz əksini tapıb. Tədbirdə GEANT Şəbəkəsinin Avropada 3500-dən çox təhsil müəssisəsini (30-dan çox ölkə) birləşdirən multi-giqabayt internet şəbəkəsi olması, təhsil ehtiyaclarından əlavə olaraq, İP xidmət keyfiyyəti (QoS), Multicast, virtual özəl şəbəkə ilə təmin etməsi, məlumatların ötürülmə sürətinin 1-dən 10 giqabayt saniyədə təşkil etməsi, elektron kitabxana və resurslara giriş imkanının olması kimi üstünlükləri qeyd edilib.

# "Müəllimlər müəllimi" filmi təqdim olunub

## Sənədli lentdə tanınmış pedaqoq-alim Əjdər Ağayevin həyat və fəaliyyət yolundan söz açılır

**Yusif ƏLİYEV**



İyulun 20-də Xəzər Universitetində görkəmli elm xadimi, Azərbaycan Təhsil Şurasının sədri, professor Əjdər Ağayevin yaradıcılığına həsr olunmuş "Müəllimlər müəllimi" sənədli filminin təqdimatı olub. Mərasimdə Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov, filmin rejissoru, professor Əlinasir İmanlı, Təhsil Şurası İdarə Heyətinin üzvləri, tanınmış pedaqoq alimlər, Ə.Ağayevin yetirmələri və ailə üzvləri iştirak ediblər.

Tədbiri xəstəliyi üzündən mərasimə qatıla bilməyən professor Ə.Ağayevin həyat yoldaşı, biologiya müəllimi Zəkiyyə Sayılova açaraq zala toplaşanları salamlayıb və ailələri adından onlara minnətdarlığını bildirib.

Təqdimat mərasiminin aparıcısı Bakı Dövlət Sosial-İqtisadi Kollecinin direktoru, pedaqogika üzrə elmlər doktoru Vidadi Orucov öncə film və onun yaradıcısı, professor Əlinasir İmanlı haqqında qısa məlumat verib. Bildirib ki, professor Əjdər Ağayevin anadan olmasının 80 illiyi münasibətilə hasilə gətirilən sənədli filmdə müqtədir alimin Azərbaycan pedaqogika elminə gətirdiyi yeniliklər təhlil edilib, fəaliyyəti müasirləri tərəfindən dəyərləndirilib, elmi irsinin geniş tamaşaçı auditoriyasına çatdırılması qarşıya məqsəd qoyulub.

Sonra film izlənilib.

Filmin rejissoru Ə.İmanlı həm ideya müəllifi olduğu, həm də quruluş verdiyi sənədli lentin üzərində apardığı yaradıcılıq işindən danışıb. Daha sonra film ətrafında müzakirələr aparılıb. Müzakirələrdə söz alan qocaman təhsil işçisi, filologiya üzrə fəlsəfə doktoru Nəcəf Nəcəfov, ADPU-nun dekanı, pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar elm xadimi Fərrux Rüstəmov, BDU-nun dekanı, pedaqogika üzrə elmlər doktoru, professor Hikmət Əlizadə, professor Vidadi Xəlilov, Azərbaycan Milli Konservatoriyasının nəzdində Musiqi Kollecinin direktoru, Əməkdar incəsənət xadimi, professor Nazim Kazımov, ADU-nun dosenti Vidadi Bəşirov, pedaqogika üzrə elmlər doktoru, professor Hümeyir Əhmədov, yazıçı-publisist, tarix üzrə fəlsəfə doktoru Sahib Sayılov və başqaları filmi yüksək qiymətləndirib, onun məziyyətlərini sadalayıb, filmin professor Ə.Ağayevin çoxşaxəli fəaliyyəti və yaradıcılığı barədə geniş təsəvvür yaratdığını, burada Əjdər müəllim haqqında danışanlar tərəfindən onun elmi, publisistik, bədii yaradıcılıq fəaliyyətinin dərin təhlilinin verildiyini, yüksək insani keyfiyyətlərinin açılıb göstərildiyini qeyd ediblər. Çıxış edənlər, habelə, professor Ə.Ağayevin təhsilimizə xidmətlərindən, pedaqogika elminə verdiyi töhfələrdən danışıb, onunla bağlı xatirələrini bölüşüblər.

# Fərqlənmə attestatları verilib

**Şakir CƏFƏROV**

İmişli rayonu ümumi təhsil məktəblərinin tam orta təhsil və ümumi orta təhsil səviyyələrini bitirən məzunlara fərqlənmə attestatları təqdim olunub.

Rayon təhsil şöbəsindən aldığımız məlumata görə, bu məqsədlə keçirilən tədbirdə şöbənin müdiri Ramiz Əmirov, məktəb rəhbərləri, fərqlənən məzunlar və onların valideynləri iştirak ediblər.

R.Əmirov fərqlənən məzunları və onların valideynlərini təbrik edib. Onlara müstəqil Azərbaycanın layiqli vətəndaşı olmağı, bilik və zəhmətləri sayəsində nailiyyətlərini daha da artırmağı arzulayıb.

Qeyd olunub ki, rayonun ümumi təhsil məktəblərini ümumi orta təhsil səviyyəsi üzrə 1134, tam orta təhsil səviyyəsi üzrə isə 999 nəfər bitirib. O cümlədən, ümumi və tam orta təhsil səviyyələrinin hər biri üzrə 4 nəfər fərqlənmə attestatı alıb.


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Nurəddin Heydərov 538-21-66

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4561, **Sifariş** 2253

**Məsul növbətçi:** Ş.Cəfərov


# Milli Kvalifikasiyalar Çərçivəsi təsdiq edilib

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 iyul 2018-ci il tarixli 311 nömrəli qərarı ilə "Azərbaycan Respublikasının ömür boyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi" (AzMKÇ) təsdiq edilib.

AzMKÇ təhsilin bütün pillələri və səviyyələri üzrə təhsilalanların bilik, bacarıq və səriştələrini müəyyənləşdirən və təsvir edən çərçivə sənədidir. Bu sənəd ölkə daxilində kvalifikasiyaları beynəlxalq təcrübəyə uyğun sistemləşdirir, beynəlxalq mobilliyi və milli kvalifikasiyaların xaricdə tanınmasını asanlaşdırır, ixtisasların və diplomların tanınmasına imkan yaratmaqla Azərbaycan vətəndaşlarının xaricdə təhsilinə və işləməsinə əlverişli şərait yaradır. AzMKÇ əmək bazarı ilə təhsil sistemi arasında əlaqələri gücləndirir, qeyri-formal və informal təhsil vasitəsi ilə əldə edilmiş səriştələrin tanınması sisteminin yaradılmasını təşviq edir.

Sənədə əlavədə hər bir səviyyənin təsviri, yəni hər bir səviyyə üzrə tələb olunan biliklər, bacarıqlar, müstəqillik və məsuliyyət dairəsi müəyyənləşdirilib.

Sənəddə əsas məqamlardan biri təhsilin keyfiyyətinin təmin olunmasıdır. Bununla əlaqədar kvalifikasiyaların müvafiq dövlət təhsil standartlarına əsaslanması, hər bir təhsil müəssisəsində keyfiyyətin daxili təminatı və qiymətləndirilməsi sisteminin yaradılması təsbit olunub.

AzMKÇ-nin reallaşdırılması müxtəlif sektorları əhatə etdiyindən, prosesdə digər dövlət qurumları və özəl sektorun iştirakı nəzərdə tutulub.

AzMKÇ-nin təsdiq edilməsi Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli 13 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda nəzərdə tutulub. Təhsil Nazirliyi tərəfindən hazırlanmış sənəd hökumətə təqdim edilənə qədər Dünya Bankı, Avropa İttifaqı və Avropa Təhsil Fondunun mütəxəssisləri ilə hərtərəfli müzakirə olunub və onların rəy və təklifləri nəzərə alınıb. Ümumilikdə isə AzMKÇ Avropa Ali təhsil məkanının Kvalifikasiyalar Çərçivəsi və Ömür boyu Təlim üzrə Avropa Kvalifikasiyalar Çərçivəsi sənədlərinin müddəalarına uyğun olaraq hazırlanıb.

AzMKÇ-nin icrasına dəstək məqsədilə Təhsil Nazirliyinin Avropa İttifaqı ilə əməkdaşlığı çərçivəsində cari ilin fevral ayından etibarən "Azərbaycan Milli Kvalifikasiyalar Çərçivəsinin həyata keçirilməsinə dəstək" texniki yardım layihəsinin icrasına başlanılıb. Layihənin həyata keçirilməsində əlaqələndirmə rolunu Təhsil Nazirliyinin Təhsil İnstitutu həyata keçirməkdədir.

# "Təhsil, innovasiya və gənclik"

**Şakir CƏFƏROV**



Qax rayonu İlisu kənd tam orta məktəbində "Təhsildə inkişaf və innovasiyalar üzrə II qrant müsabiqəsi"ndə qalib olmuş "Təhsil, innovasiya və gənclik" layihəsi çərçivəsində Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Yaş və pedaqoji psixologiya" kafedrasının bir qrup müəllimi ilə görüş keçirilib. Görüşdə kafedranın baş müəllimləri- Azərbaycan Respublikası Təhsil İnstitutunun doktorantı Mehriban İsmayılova, "Loqos" psixoloji mərkəzinin psixoloqu Nigar Məmmədova, ADPU-nun doktorantı Münəvvər Məmmədova, eləcə də Qax rayonu Uşaq-Gənclər İnkişaf Mərkəzinin direktoru Elina Məmmədova, İlisu kənd tam orta məktəbinin direktoru Aybəniz Məmmədova və başqaları iştirak ediblər.

Təhsil şöbəsindən daxil olan məlumata görə, layihənin əsas məqsədi Qax rayonunun ümumtəhsil müəssisələrində təhsil verən 25-35 yaş intervalında olan gənc müəllimlərin potensialını üzə çıxarmaq, onların tələb olunan mühüm sahələr üzrə təkmilləşməsi və stimullaşdırılmasına imkan yaratmaqdır.

Tədbirdə müəllimləri maraqlandıran suallar cavablandırılıb, müəllim-şagird, müəllim-müəllim münasibətlərinə toxunulub, müasir məktəb və psixologiya, şagirdlərin həssas yaş dönəmlərində onlarla davranış qaydaları, natamam ailələrin uşaqlarına xüsusi diqqət və qayğının zəruriliyi, aqressiv şagirdlərlə iş və s. barədə fikir mübadiləsi aparılıb.

# Etibarsız sayılır

**2 nömrəli Bakı Baza Tibb Kolleci** tərəfindən 2013-cü ildə Ağayeva Həlimə Ramiz qızına verilmiş AA-028158 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı 115 nömrəli Qızlar Liseyi** tərəfindən 2002-ci ildə Salmanova Kəmalə Ramiz qızına verilmiş AB-068764 nömrəli diplom və attestat itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Cəhri kənd 2 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Bağırov Nurəddin Ələddin oğluna verilmiş A-233048 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Sığırlı kənd tam orta məktəbini 2003-cü ildə bitirmiş Quliyev Səlahəddin Cavanşir oğluna verilmiş A-715270 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan İncəsənət Gimnaziyası** tərəfindən 2004-cü ildə Abbasova Gülay Akif qızına verilmiş B-083625 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 228 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş İsmayılov İntiqam İnqilab oğluna verilmiş A-659905 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 179 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Əliyeva Sevinc Sultan qızına verilmiş A-167454 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Ərkivan qəsəbə 1 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Mikayılov Emin Bəhlul oğluna verilmiş A-032477 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Ərkivan qəsəbə 1 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Mikayılova Mənsumə Zahir qızına verilmiş A-234893 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 252 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Mehdiyev Ruslan Əli oğluna verilmiş A-160625 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 252 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Əliyeva Aytən Vidadi qızına verilmiş 325032 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Yüngül Sənaye Texnikumu** tərəfindən 1997-ci ildə Muradova Təranə Dadaş qızına verilmiş AB-II-005603 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Təzəkənd kənd tam orta məktəbini 2005-ci ildə bitirmiş Hüseynov Röyal Məhərrəm oğluna verilmiş B-177359 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Zəyəm qəsəbə tam orta məktəbini 2005-ci ildə bitirmiş Məmmədova Leyla Həmzə qızına verilmiş B-178295 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayonu** Nəsimikənd kənd tam orta məktəbini 2015-ci ildə bitirmiş Hüseynli Zeynəbnur Vüqar qızına verilmiş A-475125 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ordubad rayon** Biləv kənd tam orta məktəbini 2005-ci ildə bitirmiş Novruzov Elmir Əbülfəz oğluna verilmiş B-160046 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 210 nömrəli tam orta məktəbin IX sinfini 2016-cı ildə bitirmiş Hümbətov Sevindik Müslüm oğluna verilmiş A-506289 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Universiteti** tərəfindən 2013-cü ildə Mikayılova Lalə Namiq qızına verilmiş B-261264 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 25 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş İsmayılov Anar Şamil oğluna verilmiş A-167122 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad 36 nömrəli Orta Texniki Peşə Məktəbi** tərəfindən 1979-cu ildə Ələkbərov Nəhməd Əhməd oğluna verilmiş 1109 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2016-cı ildə Abbasova Təhminə Mehman qızına verilmiş A-106850 nömrəli diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2005-ci ildə Məmmədov Toğrul Xanbala oğluna verilmiş B-035340 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şamaxı şəhər** 2 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Laqoşina Yuliya Vasilyevnaya verilmiş A-333234 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı rayon** Bağırlı kənd tam orta məktəbini 2006-cı ildə bitirmiş Cəbrayılov Namiq İlyas oğluna verilmiş B-354674 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2013-cü ildə Sahar Golabıazada verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 244 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Mehdizadə İbrahim Nadir oğluna verilmiş B-590510 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2016-cı ildə Adilbəyli Nicat Abdulla oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 143 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Cəlilova Ülviyyə Mahir qızına verilmiş şəhadətnamə və 2009-cu ildə verilmiş B-589069 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Plankənd tam orta məktəbini 1991-ci ildə bitirmiş Məmmədova İradə Nurəddin qızına verilmiş 144459 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**H.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutu** tərəfindən 1984-cü ildə Heydərova Sevda İmamqulu qızına verilmiş MB-011442 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Astara rayonu** Şahağac kənd 2 nömrəli tam orta məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Quliyev Azər Zehni oğluna verilmiş A-085474 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Dövlət Pedaqoji Universitetinin kollektivi Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının müdiri, professor

**ƏZİZXAN TANRIVERDİNİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

# Məktəb tətildə də maraqlıdır

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

Beləliklə, V-VI sinif şagirdi olan 38 uşaq iyulun 2-dən etibarən yay məktəbinə qoşulub. Bu məktəbin öz qaydaları var. Belə ki, iştirakçıları məktəbin öz şagirdləri arasından seçilirlər. Qonşuluqda yerləşən təhsil müəssisələrinin şagirdlərinin yay məktəbində iştirakına yol verilmir: “Həzi Aslanov” metro stansiyasının yaxınlığındakı məktəblər ərazi nöqteyi-nəzərindən bizə yaxındır. Həmin müəssisələrdən bizim yay məktəbində iştirak arzusunda olanlar çoxdur. Belə müraciətlərin heç birini müsbət dəyərləndirə bilmirik. Layihənin icra olunmadığı məktəblərin şagirdlərini yay məktəbinə qəbul etmirik”.

Ancaq “Məktəblinin dostu” layihəsinin icra olunduğu 32 təhsil müəssisəsi arasında yay məktəblərinin təşkil olunmadığı məktəblərdən qonaq sakin qəbul edilə bilər. Bir şərtlə ki, məktəblər ərazicə yaxın, valideynlər isə razı olsun. Dilguşə Fətəliyevanın sözlərinə görə, bu, mümkün olsa da, indiyədək reallaşdırılmayıb. Ancaq 95 nömrəli tam orta məktəbdə təşkil edilən yay məktəbində başqa məktəbin şagirdi var: “Məhərrəm adlı şagirdimiz növbəti tədris ilindən başqa məktəbdə təhsil alacaq. Artıq keçmiş şagirdimiz sayılan Məhərrəm yay məktəbində iştirak etməyi çox arzulayıb. Valideyni də bizə zəng edərək bu arzusunu ifadə etdi. “Ərizəsini müsbət cavablandırmağımız üçün Məhərrəmin şəxsi işləri məktəbdə olmalıdır”, - deyə cavab vermişdik. Təsəvvür edin ki, valideyn uşağın avqust ayında yay məktəbində iştirak edə bilməsi üçün sənədlərini məktəbdən götürməyib. Bu, bizim üçün çox xoşdur ki, valideynlər də, ən az şagirdlərimiz qədər fəaliyyətimizdən məmnundur”.

### Sən mənimsən, mənimsən...

Beləliklə, yay məktəbində gün başlayır. Hər gün ev sahibi və məşqçi seçilir. Ev sahibi vəziyyət barədə məktəblinin dostlarına məlumat verir. Davamiyyəti yoxlayır, gəlməyənləri müəyyənləşdirir. Sonra məşqçinin rəhbərliyi ilə idman edirlər.

Yay məktəbi yarım gün olur. Günorta saat 2-dək uşaqlar məktəbi tərk edirlər.

Hər gün eyni vaxtda, səhər saat 9-da gimnastika ilə günə başlayırlar. Himn oxuyur və sonra müxtəlif təlimlər keçirlər. Həftənin tək günlərinin bir, cüt günlərinin ayrı məşğuliyyəti olur. Dəyişməyən, hər gün təkrarlanan, dövlət himni qədər onlara doğma olan və elə himnimiz kimi hər gün şəstlə təkrarladıqları bir misra da var: “Sən mənimsən, mənimsən, bədəndə durduqca can, Yaşa, yaşa, çox yaşa, ey şanlı Azərbaycan!”.

VI sinif şagirdi Fidan Abışova deyir ki, bu misranı hər gün təkrarlamaqdan zövq alırlar: “Özümüz təşəbbüs göstərdik. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar dostlarımıza təklif etdik ki, himnimiz kimi, bu misranı da hər gün birgə təkrarlayaq”.

Teymur Bayramov yay məktəbində günlərinin çox maraqlı keçdiyini söyləyir: “Hər gün maraqlı oyunlar oynayır, yarışlar keçiririk. “Su yarışı”, “Tornado”, “Breynrinq” yarışları çox maraqlı olur. İndiyədək elə bir gün olmayıb ki, burada günümüz darıxdırıcı keçsin”.

Təhminə Musazadə yoldaşının sözünə qüvvət verir: “Burada hər işi maraqla görürük. Xüsusən, piknik etmək çox xoşumuza gəlir”.

### Yay məktəbində piknik

Bu gün də piknik var. Məktəbin həyətində yerdən süfrə qurublar.

## “Məktəblinin dostu” layihəsi çərçivəsində reallaşdırılan “Yay məktəbi”ndə bir gün

Ağacın kölgəsində qurulan məktəbli süfrəsində ancaq onların öz sevdiyi qidalardır. Həvəslə kimin boğçasından nə çıxacağını izləyə-izləyə öz gətirdiklərini süfrəyə düzürlər. Ağız deyəni qulaq eşitmir. Uşaqlar piknik hazırlığına elə aludə olub ki, heç kimə fikir vermirlər. Ad çəkmək, “Ay uşaqlar!!!” deyib səsləmək kara gəlmir. Bu məqamda “Sol əl” qaydası işə düşür. Dilşad Fətəliyevanın “Sol əl qaydası!” deməsi ilə əllər havaya qalxır və ətrafa sakitlik çökür. Bu da onların öz aralarında formalaşdırdıqları vahid dildir. Sol əl qalxanda susur və dinləyirlər. Piknikdə “sol əl” qaydası bir az yersiz görünsə də, başqa çarə yoxdur. Onları söhbətə tutduğumuzdan yemək saatları bir az gecikib. Hər gün saat 11.00 yay məktəbində yemək saatıdır. Gecikmə uşaqları xeyli acdırıb. Ona görə də ipə-sapa yatmırlar.

Sahib Qasımov və Cavid Ağayevlə söhbətləşirik. Sahib deyir ki, birgə yemək xoşuna gəlir. Cavid isə bunun onlara paylaşmağı öyrətdiyi qənaətindədir: “Məncə, insan paylaşmağı bilməlidir. Biz də piknikdə gətirdiklərimizi bir-birimizlə paylaşırıq. Onda yediklərimiz daha dadlı olur”.

### Zərərli qidalar

Bəlkə də acmalarına səbəb olan gecikmə deyil, sevdikləri, ancaq inkişafda olan kiçik orqanizmləri üçün zərərli sayılan şirniyyat və atışdırmalıqlar yeyəcək olmalarıdır. Məktəblinin dostları bu dəfə valideynlərdən şikayətlənirlər: “Uşaqların təməli əvvəlcədən yanlış qoyulub. Odur ki, sadəcə biz deməklə uşaqları bu cür qidalardan uzaqlaşdıra bilmirik. Bu məsələdə valideyn də bizimlə eyni qərarı müdafiə etməlidir ki, uşaqlara təsir imkanımız olsun. Dərs vaxtı qazlı və enerjili içkilər, çips, ketçuplu, mayonezli, kremli qidanın məktəbə daxil olmasına yol vermirik. Kameralar vasitəsi ilə nəzarət etdiyimiz və önəm verdiyimiz məsələlərdən biri də məhz budur. Hətta sinif otağında belə aşkar etsək, müdaxilə edir, qarşısını alırıq. Bunların ziyan olduğunu uşaqlara da, valideynlərə də demişik. Dərs ili ərzində bu qaydaya əməl etməyə onları məcbur etsək də, yay məktəbində bunu edə bilmirik. Çünki valideynlər uşaqlarının bunları istədiyini, başqa bir şey yemədiyini iddia edərək xəbərdarlıqlarımıza fikir vermirlər”.

**Yay məktəbində hər gün ev sahibinin seçdiyi bir kitab ətrafında müzakirələr təşkil edilir. Uşaqlar hər biri ayrı kitab oxuyur, məzmununu digər iştirakçılara da danışır. Sonra müzakirə başlayır. Bundan başqa, Azərbaycan mətbəxindən tutmuş dünya dövlətlərinə, onların bayraqlarına qədər hər mövzuda müzakirələr təşkil edilir.**

### Yay məktəbinin sevimli məşğuliyyətləri

Yay məktəbini uşaqlara sevdirən adi dərs günlərindən fərqli olaraq, bu cür güzəştlər olması deyil, həm də vaxtın çoxunun əyləncələrə ayrılmasıdır. Məsələn, yay məktəbinin iştirakçıları arasında yaxşı oyunçular var. 95 nömrəli məktəbin topu ayağının ucunda məharətlə hərəkət etdirən 9 oyunçusu bu yay peşəkar futbolçularla birgə məşq etmək imkanı qazanıb. Həmin 9 məktəblidən biri - Sadiq Babayev danışır ki, məşqlərə qədər özünün yaxşı oynadığını düşünürmüş: “Neftçili Yay Futbol Düşərgəsi”ndə iştirak etdim. Günün ilk yarısında futbol məşqləri edir, ikinci yarısında isə müxtəlif viktorinalarla biliyimizi təkmilləşdiririrdik. Hər mərhələnin yekununda iştirakçılara sertifikatlar və hədiyyələr təqdim olundu. Bu məşqlərdə iştirak edənə qədər elə bilirdim hamıdan yaxşı oynayıram. Bu məşqlərdən sonra anladım ki, bu oyunda öyrənməli olduğum çox şey var”.

Buna baxmayaraq, Sadiq özü ilə qürur duyur: “18 məktəb arasında futbol yarışı keçirildi. Həmin yarışda komandamızın kapitanı kimi məktəbimizi təmsil etdiyim üçün qürur duyuram”.

Sadiq deyir ki, yay məktəbi onun çox xoşuna gəlib. Növbəti il də iştirak edəcək: “Burada çoxumuzun bilmədiyimiz istedadımızı üzə çıxartdılar. Elə mənim də bəzi xüsusiyyətlərim burda ortaya çıxdı. Əvvəllər kompleksim vardı, artıq yoxdur. Üstəlik, yaxşı səsim olduğunu da burada aşkarladılar”.

Elnur Balışov deyir ki, məktəblinin dostları idmanı onların həyat tərzinə çevirib: “Hər gün gələn kimi idman edirik. Çox idman edir, çoxlu tərləyirik”.

### “Deyir, Cavid, nə gözəl şəkil çəkirsən!”

Həftənin cüt günləri isə təsviri incəsənət dərnəyi olur. Azərbaycan Dövlət Rəssamlıq Akademiyasını bitirən məktəblinin dostu Aişə Fərəclinin təşəbbüsü ilə yaradılan dərnək şagirdlər arasında nə cövhərlər aşkar edib, bilirsinizmi?

Şagirdlər deyir ki, Mahirin rəsm çəkə bildiyini, Ninanın rəsm məktəbinə getdiyini burada öyrəniblər. Cavid Ağayev söhbətə qoşulur: “Elə mən də burda rəsmlər çəkdim. Elə gözəl çəkirəm ki... Aişə müəllim çox bəyənir. Deyir, Cavid, nə gözəl şəkil çəkirsən!”.

### Yay məktəbində tədqiqatyönümlülük

Yay məktəbində hər gün ev sahibinin seçdiyi bir kitab ətrafında müzakirələr təşkil edilir. Uşaqlar hər biri ayrı kitab oxuyur, məzmununu digər iştirakçılara da danışır. Sonra müzakirə başlayır. Bundan başqa, Azərbaycan mətbəxindən tutmuş dünya dövlətlərinə, onların bayraqlarına qədər hər mövzuda müzakirələr təşkil edilir. Yay məktəbinin üzvlərinin bu mövzularda çox maraqlı tədqiqatları ortaya çıxır. Məktəblinin dostu Sona Hacılı deyir ki, bu tədqiqatların müzakirəsi zamanı onlar da məktəblilərdən çox şey öyrənirlər: “Biz də onlardan öyrənirik. Verdiyimiz mövzular ətrafında elə maraqlı məqamlar tapırlar ki, təəccüblənməyə bilmirik. Onlardan öyrənəndə, nəyi ilk dəfə eşidəndə, mütləq deyirik. Buna görə də çox sevinir, daha da həvəslənirlər”.

Yay məktəbinin iştirakçılarının tapşırıqlarından biri də filmlərlə bağlı olur. Həftədə heç olmasa bir dəfə hər hansı filmdən fraqment hazırlayıb gətirirlər. Filmlərə baxır, onu birgə müzakirə edirlər.

Şagirdlərin tədqiqat obyekti olan dövlətlərlə bağlı bilgiləri bir oyuna çevrilib. Yarışa-yarışa Yusif Məmmədli nəinki Avropa, bütün dünya dövlətlərini və paytaxtları tanıyır. Bu məsələdə heç kim onunla yarışa bilmir. Yusif deyir ki, onun yay məktəbində ən xoşuna gələn intellektual yarışlardır. Paytaxtlarından, bayraqlarından ölkələri tanımaq yarışına istənilən şəxslə girə və qalib gələ bilər. Məktəblinin dostu Nüşabə Qaracayeva hazırladıqları slayd əsasında uşaqların necə həvəslə yarışdıqlarından danışır: “Əvvəlcədən hazırladığımız slaydda bir görüntü və paytaxt şəhərin adı qeyd olunub. Uşaqlar bu yarışda paytaxtından dövləti tanımalıdır. Uşaqların ən böyük həvəs göstərdiyi yarışlardandır. Hamı bu yarışa həvəslə qoşulur”.

Zərrin Alquliyeva da ayrı-ayrı mövzular üzrə tədqiqat aparmağı sevir: “Bir çox mövzuda tədqiqat aparmışıq. Bayramlar haqqında məlumatlar hazırlayırıq. Çox maraqlı olur”.

### “Onların münasibətlərinin necə normallaşdığını görmək maraqlı olur”

Yay məktəbinin uşaqlara aşıladıqları bunlarla da bitmir. Məktəblinin dostları onlara insanlarla qarşılıqlı münasibətin əsas tərəflərini də öyrədirlər. Kollektiv yemək, birgə düşünmək, ortaq qərar vermək vərdişi şagirdlərin yay məktəbində əldə etdiyi ən böyük qazanca çevrilir. Xüsusən, uşaqların ailə üzvləri ilə münasibətləri dəyişir. Məktəblinin dostu Dilguşə Fətəliyevanın sözlərinə görə, bəzi təlimlər şagirdlərin ailədə münasibətlərinə müsbət təsir edir: “Xüsusən, bədən dili təlimlərimizdən sonra qardaş və bacıları ilə kobud rəftar edən uşaqların davranışında fərq müşahidə edən valideynlər bunu bizimlə minnətdarlıqla paylaşırlar. Eyni zamanda, paralel siniflərdə oxuyan və dərs vaxtı bir-birləri ilə yollaşmayan uşaqlar yay məktəbində birgə təlimlər zamanı yoldaşlarını yenidən kəşf edirlər. Onların münasibətlərinin necə normallaşdığını görmək bizim üçün də maraqlı olur”.

### Heyvanlara sevgi

Uşaqlar 95 nömrəli tam orta məktəbin həyətindədirlər. Əksəriyyəti də təkər üstündə. Bəziləri velosiped sürür, bəziləri də konki. Amma bu hərəkətliliyə baxmayaraq, quşlar da rahatlıqla yerdə gəzir, necə deyərlər, uşaqlara qoşulurlar. Quşlara daş atan, təbiətə düşmən kəsilən uşaqlar olsaydı, hər halda quş uçanda qanad salardı, elə deyilmi?

Məktəblinin dostları Nüşabə Qaracayeva və Sona Hacılı yay məktəbində heyvanlara münasibət formalaşdıran mövzuların tez-tez qoyulduğunu deyirlər: “Heyvanlara qarşı qorxu və nifrət deyil, mərhəmət hissi aşılamağa çalışırıq. Bununla bağlı təlimlər keçirik. İsti hava şəraitinin müşahidə edildiyi günlərdə bayıra bir qab su qoymaq lazım olduğunu onlara hər zaman xatırladırıq”.

### Psixoloqların dəstəyi

“Məktəblinin dostu” layihəsi icra olunmağa başlayandan sonra ən çox maraq doğuran məqamlardan biri onların psixoloji cəhətdən çətin qiymətləndirilən uşaqlarla münasibətlərin tənzimlənməsində göstərdiyi fəaliyyət olub. Yay məktəblərində də psixoloqlara müraciət edilir. O qədər sıx olmasa da, psixoloq məsləhətinə ehtiyac duyulur. Ümumiyyətlə, ehtiyac olub-olmamasından asılı olmayaraq, “Məktəblinin dostu” layihəsi çərçivəsində qurulan Psixoloji Mərkəz fəaliyyətini yayda da davam etdirir. Hər gün psixoloqlar yay məktəblərinin təşkil olunduğu binalara baş çəkirlər. D.Fətəliyeva deyir ki, ciddi psixoloji dəstəyə ehtiyac olmasa da, yay məktəbinin üzvləri arasında xüsusi söhbətlərə cəlb edilənlər olur: “Suada adlı şagirdimiz həddindən artıq küsəyəndir. Tez-tez onun uşaqlarla münasibətlərini tənzimləməli oluruq. Bəzən hətta əməkdaşlarımızdan birini ona təhkim edir, ayrıca söhbət etməli oluruq. Belə söhbətin sonunda Suada yoldaşları ilə razılaşır, hətta üzr belə istəyir”.









### Valideynlər onlardan çox razıdır: “Heyif ki, cəmi 1 aydır”

Məktəblinin dostları valideynlərin də daxil olduğu qrup yaradıb və bu qrupda baş verən yeniliklərdən tutmuş uşaqların davamiyyətinə qədər hər şeyi onlarla paylaşırlar. Uşağının hər addımından xəbərdar olması, övladını etibar edəcəyi bir güvənli əlin varlığı hər valideynin ürəyini sakitləşdirir, işini asanlaşdırır. Cavid Ağayevin valideyni Dürdanə Ağayeva deyir ki, uşaqları telefondan uzaq tutan yay məktəbi lap ürəyincə olub: “Gözlədiyimdən daha böyük nəticə aldım. İşlədiyim üçün uşağı başqa yerə də apara bilmirəm. Odur ki, bu yay evdə oturub telefonla oynayacaqdı. Məktəblinin dostları məni də, uşağımı da xilas etdi. Telefonla oynamaqdan gözü ağrıyır, qaməti əyilir. İşdə olanda buna nəzarət imkanım da olmur. Bu ay ərzində yay məktəbində olmaqla Cavidin dünyagörüşü inkişaf etdi, daha çox bilgiləndi”.

Xədicə Kərimova da işləyən valideyn olduğu üçün övladının vaxtının səmərəli təşkili onun lap ürəyindən olub: “Nə ilə məşğul olsalar, şəkillərini məktəblinin dostları paylaşırlar. O qədər maraqlı gün keçirirlər ki, evdə də danışmaqdan doymurlar. Artıq məndə də onların oyunlarına maraq yaranıb. Məktəblinin dostlarının fəaliyyəti sadəcə uşaqların inkişafı baxımından səmərəli deyil, həm də bizim rahatlığımız nöqteyi-nəzərindən əlverişlidir. Az qala uşağın hər dəqiqəsi barədə məlumatımız olur. Heyif ki, cəmi bir ay təşkil olunur”.

### Yay məktəbinin kiçik üzvləri

Günün sonunda yay məktəbinin şagirdləri qazanclarını hesablayırlar. Hərənin bir, ya da bir neçə ulduzu var. Elə sevinirlər ki, sanki ulduzları onlara göydən endirib hədiyyə ediblər. Halbuki hər ulduz üçün məktəblinin dostlarının verdiyi nə qədər çətin, ancaq bir o qədər də maraqlı tapşırıqların öhdəsindən gəlməlidirlər. Bəlkə də elə ona görə bu ulduzlar onlar üçün şirindir.

Tunar uşaq arabasında yatan lap kiçik qardaşı Ayazla bacısı Fidanın məktəbdən çıxmağını gözləyir. Bu iki qardaş hələ çox kiçikdirlər. Ancaq Tunar deyir ki, bacısı burada hər şey öyrənir: “Böyüyüb yay məktəbinə mən də gələcəyəm. Onda ən çox ulduz mən alacağam”.